AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI

ELMİ-METODİKA ŞÖBƏSİ



# *İnformasiya cəmiyyətində uşaq kitabxanaları*

**Bakı – 2015**

**Tərtibçidən**



İnformasiya cəmiyyəti və biliklər cəmiyyətinin qurulmasında uşaq kitabxanalarının üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi "Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Uşaqlar hər bir insanın mənəviyyatıdır. Ona görə də dünyada, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı, xüsusi diqqət göstərilibdir. Uşaqlar daim qayğı altında olmalıdır, onları qorumaq, müdafiə etmək, böyütmək, insan cəmiyyətinin fəal iştirakçısı, fəal üzvü etmək lazımdır. Uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür. Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Bu müdrik kəlamlar informasiya cəmiyyətində yaşayan hər bir Azərbaycan vətəndaşına, o cümlədən uşaq kitabxanalarının əməkdaşlarına həmişə düzgün istiqamət göstərir.

Bu gün mədəni və tarixi irsimizin qorunub saxlanılması kitabxanaların inkişafına gedən yoldan keçir. Bu sahənin inkişaf etdirilməsi ilə yanaşı, kitabxanalarımızın dünya informasiya məkanına daxil olmasını təmin etmək istiqamətində də işlər görülməkdədir. XXI əsrin bizə verdiyi imkanlar bu işin həyata keçirilməsini daha da asanlaşdırır. Belə ki, informasiyalı cəmiyyət formalaşdırmağın əsas atributlarından birincisi bu sahədə informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsidir. Məlumdur ki, kitab ənənəvi informasiya vasitəsi olaraq bütün zamanlarda öz aktuallığını qoruyub saxlayıb. Amma bəzən onların illərlə saxlanılması, nəsildən-nəsilə ötürülməsində problemlər yaranır. Bu problemi aradan qaldırmaq üçün texnoloji baxımdan daha yaxşı inkişaf etmiş ölkələr zamanın tələbinə uyğun olaraq lazımi tədbirlər görüb. Elə bunun nəticəsidir ki, indi dünyada ənənəvi kitabxanalarla yanaşı elektron kitabxanalar da mövcuddur. Çünki müasir kitabxanalarda elektron resursların yaradılmasına böyük tələbat var. İstifadəçi, əsasən öz maraq dairəsinə uyğun müxtəlif elm sahələrinə dair elektron resurslarla işləməyə üstünlük verir. Ona görə də müxtəlif sahələr üzrə mükəmməl, zəngin elektron resursların yaradılması, onun mütəmadi olaraq yeni məlumatlarla yeniləşdirilməsi zəruridir. Təbii ki, belə bir işi internet və texniki vasitələrin köməyindən istifadə etməklə həyata keçirmək mümkündür.

Ölkədə kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə cavab verən texnologiya və proqram təminatları ilə, Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalamışdır. Sərəncam Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə işi sayəsində həyata keçirilir. Belə ki, sərəncama əsasən kitabxanalar modernləşməli, müasir informasiya

texnologiyaları ilə təmin edilməli, Azərbaycanın regionlarında fəaliyyət göstərən kitabxanalar təmir olunmalı, ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılmalı və onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların tam istifadəsinə verilməsini təmin etməlidir. Mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Kitabxana sahəsinin əməkdaşı olaraq deyə bilərəm ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi mədəniyyət sahəsinə də diqqət artırılmışdır.

Azərbaycan Respublikasında müxtəlif tipli kitabxanaların daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə kütləvi, elmi-texniki, uşaq, gənclər, tədris və musiqi məktəblərinin kitabxanaları, eləcədə müxtəlif dövlət qurumlarının tabeliyində olan kitabxanalar daxildir.

F.Köçərli adına RUK - sı olaraq İnformasiya cəmiyyətində uşaq kitabxanaları mövzusu ilə bağlı vəsait işləməyi özümüzə borc bildik. Vəsaitin yazılmasında məqsəd respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarına bu mövzuda köməklik etməkdir.

## *İnformasiya cəmiyyətində uşaq kitabxanaları*

Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutdur.Çünki kitabxana vətəndaşların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, fasiləsiz təhsilin inkişafında imkanlı zəmin yaradan, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. Məhz kitabxanalar vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Ümumiyyətlə, kitabxana-informasiya şəbəkəsinin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, onların fasiləsiz təhsilə və informasiyaya olan tələbatının ödənilməsinə imkan yaradır.

İnformasiyanın əldə olunmasında və müvafiq istiqamətə yönəldilməsində uşaq kitabxanalarının rolu kifayət qədər böyükdür. Məhz bu baxımdan əminliklə söyləyə bilərik ki, öz xidmət növlərini, oxucularla iş vərdişlərini, yeni texnologiyaların iş proseslərinə tətbiqini inkişaf etdirən kitabxanalar qloballaşan dünyanın, ümumilikdə informasiya cəmiyyətinin ayrılmaz tərkib hissəsidir.

Uşaq Kitabxanalarının işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən, internetdən istifadə oxucuların son informasiya ilə məlumatlandırılmasına xidmət edir. Avtomatlaşdırma olmayan kitabxana müasir kitabxana sayıla bilməz. Hazırda kitabxanalarda CD fondları yaradılmaqdadır. Bu gün informasiyanın saxlanması, işlənməsi və ötürülməsi sahəsində yeni texnologiyalar tətbiq edilmədən kitabxana sahəsinin inkişafı mümkün deyildir. Buna görə də kitabxana proseslərinin avtomatlaşdırılması kitabxanaların inkişafının üstün istiqamətlərindən birinə çevrilməkdədir. Kitabxanaların metodik təminatının həmişəki məzmunu xeyli dəyişmiş və zənginləşmişdir. Bu, şübhəsiz ki, ilk növbədə kitabxana işinin inkişafı, cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə əlaqədardır.

Kitabxanalar meydana gəldiyi gündən müasir günə kimi, cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək və əsrlər boyu toplanmış informasiyanı gələcək nəsillərə çatdırmaq funksiyasını yerinə yetirirlər. Cəmiyyətin informasiyalaşmasında, informasiyadan inkişaf resursları kimi istifadə edilməsində, ən əsası isə informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların rolu əvəzsizdir.

Artıq hər birimizə məlumdur ki, dünya alimləri haqlı olaraq XXI əsri «informasiya əsri» adlandırmışlar. Yaşadığımız cəmiyyət isə informasiyalaşdırılmış cəmiyyət adlanır.İnformasiyalaşdırılmış cəmiyyət-işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması ilə məşğul olan cəmiyyətdir. Kitabxanaların ənənəvi



kataloq sistemlərinin elektron kataloqlarla əvəzlənməsi, kitab verilişinin, oxucu qeydiyyatının, beynəlxalq informasiya mübadiləsinin yüksək texnologiyaların köməyi ilə həyata keçirilməsi istiqamətində mühüm işlər görülməkdədir. Bütün bunlar kitabxana-oxucu münasibətlərinin daha operativ şəkildə qurulmasına xidmət edir. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi kitabxana işində mühüm nəticələr əldə edilməsi üçün imkan yaradıb.Uşaq kitabxanalarının fəaliyyəti avtomatlaşdırma və informasiya-kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi və idarə edilməsi, ədəbiyyatın elektron versiyasının yaradılması, elektron kataloqun təşkili proseslərinin idarə edilməsi və bu proseslərə nəzarət, veb-saytlarda informasiyaların tənzimlənməsi, veb-saytlarda turizmlə bağlı məlumatların yerləşdirilməsi kimi vəzifələri özündə birləşdirir.

Kitabxana işçilərinin vəzifəsi isə dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplamaq, gələcək nəsillərə çatdırmaqla müstəqil və yaradıcı düşünən vətəndaşların formalaşmasına fəal yardım etməkdən ibarətdir.

Mədəni və tarixi irsimizin qorunub saxlanılması kitabxanaların inkişafına gedən yoldan keçir. Bu sahənin inkişaf etdirilməsi ilə yanaşı, kitabxanalarımızın dünya informasiya məkanına daxil olmasını təmin etmək istiqamətində də işlər görülməkdədir. XXI əsrin bizə verdiyi imkanlar bu işin həyata keçirilməsini daha da asanlaşdırır. Belə ki, informasiyalı cəmiyyət formalaşdırmağın əsas atributlarından birincisi bu sahədə informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsidir. Məlumdur ki, kitab ənənəvi informasiya vasitəsi olaraq bütün zamanlarda öz aktuallığını qoruyub saxlayıb. Amma bəzən onların illərlə saxlanılması, nəsildən-nəsilə ötürülməsində problemlər yaranır. Bu problemi aradan qaldırmaq üçün texnoloji baxımdan daha yaxşı inkişaf etmiş ölkələr zamanın tələbinə uyğun olaraq lazımi tədbirlər görüb. Elə bunun nəticəsidir ki, indi dünyada ənəvi kitabxanalarla yanaşı elektron kitabxanalar da mövcuddur. Çünki müasir kitabxanalarda elektron resursların yaradılmasına böyük tələbat var. İstifadəçi, əsasən öz maraq dairəsinə uyğun müxtəlif elm sahələrinə dair elektron resurslarla işləməyə

üstünlük verir. Ona görə də müxtəlif sahələr üzrə mükəmməl, zəngin elektron resursların yaradılması, onun mütəmadi olaraq yeni məlumatlarla yeniləşdirilməsi zəruridir. Təbii ki, belə bir işi internet və texniki vasitələrin köməyindən istifadə etməklə həyata keçirmək mümkündür. Bu gün respublikamızda geniş kitabxana informasiya şəbəkəsinə malik olan kitabxanalar mövcuddur.

Ölkədə kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə cavab verən texnologiya və proqram təminatları ilə, Azərbaycan kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalamışdır. Sərəncam Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə işi sayəsində həyata keçirilir. Belə ki, sərəncama əsasən kitabxanalar modernləşməli, müasir informasiya texnologiyaları ilə təmin edilməli, Azərbaycanın regionlarında fəaliyyət göstərən kitabxanalar təmir olunmalı, ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılmalı və onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların tam istifadəsinə verilməsini təmin etməlidir.

Hörmətli prezidentimiz İlham Əliyevin bu sərəncamını əsas tutaraq, uşaq kitabxanalarına kömək məqsədi ilə F. Köçərli adına RUK-sının Elmi metodika şöbəsi "Uşaq kitabxanalarında informasiya texnologiyalarının tətbiqi. Multimedia zalının təşkili" adlı vəsait işləyib Azərbaycanın rayonlarında yerləşən uşaq kitabxanalarına göndərilmişdir. Vəsait informasiya texnologiyalarının tətbiqini, multimediya zalının təşkilini əsas götürməklə, ölkə kitabxanalarının öz işlərini bu istiqamətdə görməsinə kömək göstərmək və onları düzgün istiqamətləndirmək məqsədi daşıyır.

İnformasiya termini geniş anlayışdır, ondan müxtəlif elm sahələrində istifadə olunur. İnformasiya latınca "informatio" sözündən götürülmüş və obyekt, hadisə, fakt haqqında məlumat verilməsi, nəyinsə izah edilməsi deməkdir və hal-hazırda bizi əhatə edən aləmdə elmin elə bir sahəsi yoxdur ki, orada informasiya texnologiyalarının tətbiqindən istifadə olunmasın. Biz informasiyalaşdırılmış cəmiyyətdə, informasiya aləmində yaşayırıq. İnformasiyalaşdırma – insan sivilizasiyasının ümumi qaçılmaz inkişaf mərhələsidir. Məhz buna görə də informasiyalaşdırma elə bir vasitədir ki, bunun köməyi nəticəsində cəmiyyət özünü kifayət qədər tez dərk edir, bu vasitə ilə müasir şəraitdə lazım olan əsas məsələlər həllini tam və effektiv tapa bilir. İnformasiya - başqa sözlə faktiki verilənlər haqqında biliklərin toplusu və onlar arasındakı asılılığı təyin edir və sonda isə cəmiyyətdə tam strateji resurslara çevrilir. İnformasiyalaşdırma prosesləri təbiətdə və cəmiyyətdə həmişə çox mühüm rol oynamış və özünəməxsus sistem yaratmışdır. İnsana məxsus xüsusiyyətlər - nitq, təsəvvür, istehsal, elm və incəsənət, idrak və dərketmə, yadda saxlama, informasiyanın işlənib hazırlanması və ötürülməsi çoxobrazlı və mürəkkəb proseslərdir. Yazının yaranması və yayılması, kitab çapı, dövri mətbuat, teleqraf, telefon, fotoqrafiya, sonralar radio, televiziya və kompüter texnikası bu yolda ən mühüm amillərdən sayıla bilər. Kompüter texnikasının inkişafı sürətinə və miqyasına

görə fenomenal sayıla bilər və bu proseslərin həyata keçirilməsində yeni informasiya texnologiyalarının tətbiqi cəmiyyətin bütün fəaliyyət sahələrində öz bəhrəsini verməkdədir. İnformasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən vacib amillərdən birinə çevrilmişdir.

Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin verdiyi böyük üstünlüklərdən uğurla istifadə edirlər. Müasir cəmiyyətin inkişaf səviyyəsi onun informasiya infrastrukturunun inkişaf dərəcəsi ilə təyin olunur. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə demək olar ki, insan fəaliyyətinin bütün sahələrini əhatə edən güclü informasiya infrastrukturu sürətlə inkişaf etməkdə davam edir və formalaşır. Dünyada informasiya texnologiyalarına heç vaxt indiki qədər maraq oyanmamışdır. Bu ölkələrdə informasiya və kommunikasiya vasitələrinin inkişafı əsasında əmək məhsuldarlığının artımı hiss olunacaq dərəcədə təmin olunmuş və təhsildə, məişətdə, səhiyyədə, ticarətdə, istehsalda həyat səviyyəsi yeni baxımda formalaşmışdır. Belə ki, hal-hazırda respublikada dövlət səviyyəsində dövlət və özəl qurumlarda informasiya və kommunikasiya texnologiyaları sahəsində bir sıra əhəmiyyətli dövlət proqramları və layihələr həyata keçirilmişdir. Respublikada sosial-iqtisadi münasibətlərdə aparılan yenidənqurma, cəmiyyətdə həyat tərzinin demokratikləşməsi cəmiyyətin fəaliyyətinin bütün sahələrində informasiya təminatının strukturu və xarakterinin kökündən dəyişməsini tələb edir. Yeni dövlət və ictimai təşkilatların əmələ gəlməsi, mövcud funksiyaların dəyişilməsi və yaxud yenilərinin yaranması – bunların hamısı cəmiyyətdə informasiya tələbatının artdığını, informasiya axınının istiqamətini və tərkibinin dəyişməsini, informasiyanın təqdim olunma formasını təyin edir.

Qeyd etdiyimiz kimi, müasir şəraitdə ölkənin sosial-iqtisadi, elmi-texniki inkişafının əsas məsələlərinin kompleks həlli və müdafiə qabiliyyətinin artırılması üçün yeni keyfiyyətdə informasiyalaşmış mühitin yaradılması zəruridir. İnformasiyalaşmış mühit aşağıdakılardan: kompüterlərdən, kompüter şəbəkələri kommunikasiyaları, verilənlər bankı, biliklər bazası, proqramlar kompleksindən, uyğun olaraq hazırlanmış kadrlar kontingenti və bütövlükdə birləşmiş informasiya texnologiyalarından ibarətdir. Dünya təcrübəsi aydın şəkildə göstərir ki, informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar əhalinin sosialiqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması üçün tutarlı vasitələrdəndir. Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanmasında, nəsildən-nəsilə çatdırılmasında və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında kitabxanalar əvəzsiz rol oynayır. Kitabxana fondlarının müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsi, elektron məlumat bazalarının yaradılması dövrümüzün vacib məsələlərindən biridir.Müasir informasiyalaşdırılmış cəmiyyətin bir sıra müsbət keyfiyyət göstəriciləri, üstünlükləri, spesifik xüsusiyyətləri var ki, məhz bu xüsusiyyətlər onu özündən əvvəlki cəmiyyətlərdən fərqləndirir.

**Bu spesifik xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:**

- **İnformasiyalaşdırılmış cəmiyyət** – yeni tipli cəmiyyətdir. Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına (xüsusilə informasiya texnologiyalarına) görə fərqlənir;

- **İnformasiyalaşdırılmış cəmiyyət** – bilik cəmiyyətidir. Bu cəmiyyət hər bir insanın, cəmiyyətin bilik almasını təmin edir, onlara informasiya mənbələrindən maneəsiz istifadə etmək imkanını yaradır;

- **İnformasiyalaşdırılmış cəmiyyət** – qlobal cəmiyyətdir. Bu cəmiyyətdə infomrasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var. Şübhəsiz ki, informasiyalaşdırılmış cəmiyyətin sadaladığımız xüsusiyyətləri ilk olaraq öz əksini kitabxanalarda təcəssüm etdirir. Çünki, məhz kitabxanalar əsrlər boyu zəngin informasiyanı toplayıb mühafizəsini və cəmiyyətin ondan istifadəsini təşkil etmişdir. Əgər kitabxanalar olmasaydı, indi heç bir müasir informasiya cəmiyyətindən söhbət gedə bilməzdi. Lakin, məhz kitabxanaların əsaslı iştirakı ilə müasir informasiya cəmiyyətini formalaşdırmaq mümkün olmuşdur. Buna görə də müasir kitabxanalarda informasiyanın toplanması, saxlanması və yayılması vasitələrinin təkmilləşdirilməsi ilə paralel olaraq informasiyanın axtarışı və informasiyanın işlənməsi vasitələri də modernləşdirilməlidir. Belə ki, informasiyalaşdırma oxucuların informasiya



tələbatının operativ və dolğun ödənilməsi üçün, kitabxanaçıların qarşısına qoyulan peşəkar tələblərə, bütün kitabxana proseslərinə o cümlədən oxuculara xidmət işinin təşkili və texnologiyasına köklü dəyişikliklərin edilməsini tələb edir. İnformasiya əsri kimi qiymətləndirdiyimiz XXI əsr eyni zamanda mütaliənin geniş yayıldığı, kütləvi xarakter daşıdığı əsr kimi də formalaşmışdır. Məhz bu dövrdə mütaliə həyatın ictimai hadisəsinə çevrilmişdir. Buna görə də müasir infomrasiyalaşdırılmış cəmiyyətdə mütaliəyə, onun mahiyyətinə, prinsipinə, məzmun və quruluşuna cəmiyyətin sosial-iqtisadi həyatında gedən proses kimi baxılır. Mütaliənin fərdi psixoloji proses olmasına baxmayaraq, o cəmiyyətin sosial həyatına, mövcud marağın məhsulu olan yeni ideyaların yayılmasına imkan yaradır. Mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Belə ki, insan mütaliə edərək öz dünya görüşünü, biliklərini, həyat təcrübəsini, mənəviyyatını, nitq qabiliyyətini daha da artırır. Mütaliənin xeyirlərini sadalamaqla yeni bir kitab ərsəyə gətirmək olar. Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Belə ki, insan mütaliə edərək öz dünyagörüşünü, biliklərini, həyat təcrübəsini, mənəviyyatını, nitq qabiliyyətini daha da artırır. Mütaliənin xeyirlərini sadalamaqla yeni bir kitab ərsəyə gətirmək olar.

Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir.



Bir uşaq kitabxanası olaraq F.Köçərli adına Uşaq Kitabxananın əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər gətirmək, tez-tez dəyişən, inkişaf edən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq, hər cürə yeniliklərə qarşı onların daha savadlı, daha zəkalı böyüməsinə təkan verməkdir.

Müasir informasiyalaşmış cəmiyyətdə mütaliənin rolu xüsusilə əvəzsizdir. Çünki, təbiət, cəmiyyətin inkişaf qanunauyğunluqlarını, elm və texnikada baş verən dəyişiklikləri, bəşəriyyətin əldə etdiyi nailiyyətlərin mahiyyətini dərk edib mənimsəmək üçün mütaliə ən səmərəli vasitədir. Dünyanın qabaqcıl ölkələrində istehsalın yeni texnika ilə silahlanması, yeni elmi kəşflərin, elmi nailiyyətlərin yaranması, dünyada gedən ictimai-siyasi proseslər mütaliəni obyektiv, sosial zərurətə çevirir. Mütaliənin mahiyyətini açarkən məlum olur ki, mütaliə hər hansı bir mətndə verilmiş məlumatı əxz etməyə yönəlmiş psixoloji proses olub, kommunikasiya- əlaqə fəaliyyətidir. Mütaliə həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin həyatının bütün sahələrinə bilavasitə təsir edir. Buna görə də mütaliəni bəşəri problem kimi qiymətləndirmək lazımdır. İnformasiyalaşdırılmış cəmiyyətin formalaşması və tərəqqisi mütaliə prosesinin nəticəsidir. Cəmiyyətin bütün inkişaf istiqamətlərini insan təfəkkürü formalaşdırmaqla yanaşı təkmilləşdirir. Mütaliə isə insan təfəkkürünü zənginləşdirir, düşünmə qabiliyyətini artırır.



Cəmiyyətin informasiyalaşdırılması prosesini yüksək səviyyədə təşkil etmək üçün bu işi ilk olaraq kitabxanalardan başlamaq lazımdır. Danılmaz faktdır ki, cəmiyyət informasiyanın ən mühüm vasitəsi olan kitab və kitabxanalarsız keçinə bilməz. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin informasiya müəssisəsinin ən mühüm vasitəsidir. Müasir informasiyalaşdırılmış cəmiyyətdə elm və texnikanın sürətlə inkişaf etməsi onun bütün fəaliyyət sahələrinə tətbiqini tələb edir. Bu baxımdan müasir kitabxanalar da informasiya texnologiyaları olmadan lazımi səviyyədə inkişaf edə bilməz. İnformasiyalaşdırılmış cəmiyyətdə kitabxanalara yeni informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır, fondun, informasiya ehtiyatlarının mühafizə edilməsi və xidmət işində, oxucuların tələbatının ödənilməsində yaranan problemləri asanlaşdırmağa, onları həll etməyə imkan verir. Müasir kitabxanaşünaslığın təzahür forması kimi yeni texnologiyaların tətbiqi ilə əlaqədar kitabxanalar oxuculara yeni on-line xidmət növünü təklif edirlər ki, intenret bu xidmət növünün həyata keçirilməsində əvəzsiz vasitədir.

İnternet həm də kitabxanaların yeni informasiya resursları ilə zənginləşməsini təmin edir. İnternet və on-line xidməti kitabxanalara imkan verir ki, onaların informasiya ehtiyatlarından və məlumat bazalarından ölkədən kənarda da istifadə

olunsun. Deyilənlərdən aydın olur ki, informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun olaraq dəyişdirilməlidir. Lakin, yaxşı olardı ki, kitabxanadaxili ənənəvi xidmət üsullarının təkmilləşdirilməsinə daha çox üstünlük verilsin. Xüsusilə bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Çünki, uşaq kitabxanalarında texnologiyaların və xidmət işinin tamamilə dəyişdirilməsi yeni müsbət nəticələrin alınmasına deyil, əksinə, bir sıra neqativ halların ortaya çıxmasına səbəb ola bilər. Bu neqativ hallar ilk növbədə öz əksini uşaq mütaliəsinin təşkilində göstərir.

**Beləliklə hazırda fikrimizcə, uşaq mütaliəsi aşağıdakı problemlərlə üzləşir.**

**1. Mütaliə böhranı –** bu zaman elektron sənəd daşıyıcıları uşaqların tərbiyə sistemini əhatə edə bilmir. Mütaliə prosesi pozulur, uşaqların tələbatı bəsit formada ödənilir. Mütaliəyə rəhbərlik nəzarətdən çıxır. Elektron sənəd daşıyıcılarının texnoloji tətbiqi demək olar ki, informativ xarakter daşıyır və qismən mütaliə böhranına şərait yaranır;

**2. Mütaliə azadlığının pozulması** – Bu proses mütaliə üçün zaman və məkan tələbinə uyğun gəlmir. Uşaq tərbiyə sistemi, xidmət işinə differensial yanaşma pozulur, mütaliəyə meyli olan yeniyetmə istədiyi vaxt və istədiyi yerdə mütaliə edə bilmir. Ənənəvi infomrasiya daşıyıcısı olan kitab, kitabça istənilən vaxt, istənilən məqamda mütaliə edilə bilər.

**3. Mütaliə hüququ –** bəllidir ki, elektron nəşrlər və onların texnoloji tətbiqi uşaqların informasiya tələbatını tam ödəyə bilmir. Mütaliəyə ehtiyacı olan uşaq oxucusu bu zaman ancaq virtual məkan axtarır bu isə onun mütaliə hüququ ilə uyğun gəlmir. Beləliklə, burada ənənəvi mütaliə sisteminə daha çox ehtiyac duyulur. Çünki, bu uşaqların mütaliə hüququna uyğun gəlir. Hal - hazırda Uşaq kitabxanalarının qarşısında aşağıdakı vəzifələr durur.

**-Uşaqlarda mütaliə və təlimə olan maraq və bundan sevinc duymaq qabiliyyətini inkişaf etdirmək və dəstəkləmək;**

**- İnformasiya cəmiyyətində zehni azadlığın demokratik prinsiplərinə əsaslanan fəal vətəndaş mövqeyinin tərbiyə edilməsinin vacib şərti olması ideyasının təəssübkeşliyi.**

Uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq mütaliəsinin təşkili mühüm kitabxana prosesi kimi ənənəvi metodlara daha çox söykənməlidir. Qeyd edək ki, bu fikirlər xarici ölkə kitabxanaları tərəfindən dəstəklənir. Kitab uşaq arzu və xəyallarını gerçəkləşdirən sehrli vasitədir. Hələ ömrünün ilk illərindən kitab körpə ilə işləmənin bir hissəsi olmalıdır». Mütaliə uşaqların mənəvi aləminin formalaşmasına, fəallaşmasına, yüksək mənəvi keyfiyyətlərin tərbiə edilməsinə mühüm təsir göstərən vasitədir. Daha konkret desək, kitabxanalar uşaq mütaliəsinin təşkilatçısıdır. Müasir kitabxanaşünaslığın yeni

təzahür forması kimi kitabxanalara təkcə müxtəlif sənədəlrin əldə olunduğu yer kimi deyil, eyni zamanda uşaqların informasiya ilə təmin olunması prosesinin əsas təşkilatçısı kimi də baxılır. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, və ya istiqamətləndirmək zəruridir. Bu işdə hər şeydən öncə uşaqlarda çoxcəhətli marağın gücünə nail olmaq lazımdır. Həmçinin uşaqlarda yüksək mütaliə mədəniyyətini tərbiyə etmək zəruridir. Mütaliə mədəniyyəti tərbiyəsi sistemi dərin elmi izah tələb edir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyəti tərbiyəsi, formalaşdırılması ilə həm ailədə, həm də pedaqoji qaydada məktəb və kitabxanalarda məşğul olunmalıdır. Çünki, bu günün uşağı gələcəyin informasiya resurslarının istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan olduqca asılıdır. Bu zaman uşaqlara fərqli yanaşmaq vacibdir. Məsələ ondadır ki, onlar kitabxanaçının köməyinə və uşaqlarla işləmə bacarığına dərin ehtiyac hissi duyurlar.

**Uşaqların mütaliəsinə rəhbərlik edərkən kitabxanaçı əsasən 3 məsələyə xüsusilə diqqət yetirməlidir:**

**1. Kitab seçməkdə uşağa kömək etmək;**

**2. Seçilən kitabın oxunmasına həvəs yaratmaq;**

**3. Seçilən kitabın səmərəli mütaliəsi üçün səmərəli istiqamət vermək.** Sadaladığımız xüsusiyyətlərə riayət olunarsa uşaqların mütaliəsi ardıcıl inkişaf edərək və gələcəkdə daha da təkmilləşərək daha yaradıcı xarakter dayışır.

Bildiyimiz kimi, müasir kitabxanaşünaslığın yeni təzahür formaları kimi qlobal informasiya məkanında kitabxanalarda kompüter texnologiyalarından olduqca geniş istifadə olunur. Bu çox mühüm əhəmiyyətə malikdir. Çünki, hazırda kompüterlərə uşağın diqqətini cəlb edən vasitə, kitabxanaya gedən yeni bir yol, kitaba olan marağı oyadan vasitə kimi baxılır. Məhz kompüterlərin köməyi ilə toplanmış biblioqrafik informasiya əsasında oxucu növbəti mərhələdə kitab rəfinə müraciət edir. Virtual məkanla real kitabxanalar arasında olan bu özünəməxsus körpü kitabxanaların imicinin formalaşmasına, yeni və ənənəvi informasiya vasitələrinin paralel inkişaf etməsinə, kitabxanaların əsas intellektual məkana çevrilməsinə kömək edir. Məhz kitabxanaşünaslığın nailiyyətidir ki, qlobal informasiya məkanında informasiya texnologiyasının sürətlə inkişaf etməsinə baxmayaraq, kitab nəzərə çarpacaq dərəcədə öz real yerini və əhəmiyyətini qoruyub saxlaya bilmişdir. Belə ki, texnologiya aləminə qarışmış kitab əsl danışıq aləti olub, ağıl, dərrakə və yaradıcılığı birləşdirir. Uşağın inkişaf etməsində bilik hərəkətverici qüvvədir. Bu biliyi uşaq əsasən mütaliə prosesi zamanı qazanır. uşaq kitabxanaları intellektual azadlığın müdafiəçisi və məqsədyönlü mütaliənin təşkilatçısı rolunda çıxış edir ki, burada elektron informasiya vasitələri ilə yanaşı kitabxananın real fondunun da inkişafını nəzərdə tutur. Müasir dünya kitabxanaşünaslığının yeni təzahür forması olaraq

uşaqlara daim, fasiləsiz sürətdə informasiya axtarışı strategiyasını öyrətmək lazımdır. Çünki, uşaq kitabxanaları bu gün uşaqları təhsil, yaradıcılıq, təşkilati məsələlərə dair sənəd və biblioqrafik informasiyanın həm ənənəvi, həm də texniki vasitələrlə təmin edən bir mərkəzdir. Uşaq mütaliəsinin təşkili özündə çoxaspektli, mürəkkəb, kompleks problemləri ehtiva edir. Bu problemləri həll etmək üçün onlara məqsədyönlü şəkildə, sistem nöqteyi-nəzərindən yanaşmaq lazımdır.

**Müasir kitabxanaşünaslığın yeni təzahür forması kimi sistemli yanaşma nöqteyi-nəzərindən uşaq mütaliəsinin təşkili əsasən aşağıdakı hallarda aparıla bilər:**

1. **uşaqların intellektual, mədəni və psixoloji inkişafının göstəricisi kimi (diqqət, yaddaş, obrazlı və məntiqi təfəkkür, nitq və davranış mədəniyyəti və s.);**
2. **- uşaq tərbiyə sistemi (mənəvi, əxlaq, peşə, estetik və ideoloji);**
3. **- uşaqlarla işləyən kitabxanaların əsas funksiyaları kimi (elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə);**
4. **- uşaq oxucularının yaş kateqoriyası kimi (I məktəbəqədər, 2. I-III sinif kiçik məktəbyaşlılar,**
5. **IV-VI sinif orta məktəbyaşlılar, 4.IX-XI böyük məktəbyaşlılar); - kitabxanada iş forması kimi (əyani, şifahi, fərdi, kütləvi, yazılı və s);**
6. **- kitabxana şöbələrinin quruluşu kimi (abonement, oxu zalı, sərgi zalı, soraq-biblioqrafiya şöbəsi və s.);**
7. **- uşaq mütaliəsinə təsir göstərən digər müəssisələrlə qarşılıqlı fəaliyyət kimi.**

***Oxumaq vərdişi ailədə qazanılmalıdır***

Psixoloqlar hesab edirlər ki, kitab oxumaq vərdişi ilk əvvəl ailədə qazanılmalıdır. Bu səbəbdən də valideynlər uşağı müxtəlif kitablarla təmin etməli, ona tez-tez kitab oxumalıdırlar. Britaniyalı mütəxəssislər hesab edirlər ki, valideynlər kitab almağa uşaqları ilə birgə getməlidirlər. Bu zaman onlara kitab seçmələri üçün istədikləri qədər vaxt verilməlidir: "Başlanğıcda övladınıza rahat əldə tuta biləcəyi, içində qısa hekayələri və maraqlı şəkilləri olan kiçik kitablar alın, çünki o, məhz belə kitabları sevir".Qızlar 11 yaşda, oğlanlar 12-13 yaşlarında daha çox informasiya almaq ehtiyacı hiss edirlər. Buna görə də onların kitaba, internetə marağı daha çox olur. Psixoloqlar hesab edir ki, ölkəmizdə kitab oxuyanların sayının az olmasının əsas səbəbi əhali arasında televizor aludəçiliyinin geniş yayılmasıdır: "İnsanlar televizora rahat informasiya almaq vasitəsi kimi baxırlar. "İnsanlarda kitaba marağı artırmaq üçün nə etmək lazımdır?" sualına belə cavab verərdim: Təbliğat aparılmalıdır. Məsələn, valideynlər kitabı evdə təbliğ etməli, imkan varsa, kitabxana qurmalı, övladları ilə birgə kitab oxumalıdırlar. Cəmiyyətdə isə kitabla əlaqədar kitab sərgiləri, marafonlar, yazıçılarla görüş, treninqlər, bayramlar keçirilməli, bukletlər paylanmalıdır. Bukletlərdə hər kitab haqqında qısa məlumatlar yazılmalıdır. Beləliklə, zaman keçdikcə, insanların kitaba marağı artacaq, kitabı həyatlarının bir parçasına çevirəcəklər. Maraqlı statistika və araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə daha az televizor seyr edib, daha çox kitab oxuyurlar.

Almaniyalı professor Fişer isə: "İnsan düşündükçə beyin tutumu, düşünmə imkanları və qabiliyyəti inkişaf edir. Beyin işlədikcə inkişaf edən, istifadə edilmədikdə isə ən sürətlə kütləşən insan orqanıdır. Bu kütləşməni aradan qaldırmaq üçün bir həftə zehini məşğələ etmək lazımdır. İllərlə işləməyən beyinin nə hala düşdüyünü özünüz təsəvvür edin". Bir yaponiyalı ildə 25, isveçli 10, fransalı 7 kitab oxuyur. Türkiyədə hər 7 nəfərə 1 kitab düşür. Azərbaycanda isə bu göstərici minimum səviyyədədir. Bu statistikadan da görünür ki, ölkələrin kitab oxumaları ilə inkişafı düz mütənasibdir.

Çox kitab oxuyan insan zəngin söz ehtiyatına sahib olmağın təsiri ilə gözəl nitq qabiliyyətinə malik olur, danışarkən hikmət dolu sözlərlə insanların ürəyinə asanlıqla yol tapa bilir. Bu da insanlarla münasibətini mükəmməlləşdirir, ictimaiyyətdə aktiv rol oynayan birinə çevirir. Zəngin söz ehtiyatına sahib olmağın başqa bir xüsusiyyəti isə sahibinə daha geniş düşünmə imkanı verməsidir.

Mütaliə üçün vaxt məsələsi əsas əhəmiyyət kəsb edən amildir. Nədənsə asudə vaxtının demək olar ki çoxunu mənasız şeylərə sərf edən insan həmin vaxtın hər gün bir saatını mütaliəyə ayırmır. İşdən evə dönərkən evdə olan boş zamanı adətən televiziya verilişlərinə baxmaqla keçirən insan bu vaxtınının heç olmasa bir saatını kitab oxumağa ayırsa, bir çox müsbət keyfiyyətlər qazanmaqla yanaşı vaxtını dəyərləndirmiş olar. Ya da internet klublarda, kompüter arxasında, kafelərdə, əyləncə məkanlarında və başqa yerlərdə vaxtlarını keçirən gənclər bu vaxtlarının üçdə birini kitabxanalarda keçirsələr və kitab oxumağa ayrısalar cəmiyyətin ümumi düşüncə səviyyəsi yüksələr və geri qalan cəmiyyətlər sırasında olmaqdan qurtulmuş olar. Kitab oxumağı alışqanlıq halına gətirmiş insanlar bunun üçün xüsusi vaxt ayırmaz hər fürsəti dəyərləndirərlər. Yol gedərkən, birini gözləyərkən, səyahətə çıxarkən və mümkün olan hər vəziyyətdə oxuyacağı kitabı yanından ayırmazlar. Kitab oxuma alışqanlığı insanda tərbiyəvi bir xüsusiyyətdir. Bir çox məsələ kimi bu da insanda kiçik yaşlarından, hətta, bəzi alimlərə görə ana bətnindəykən başlar. Uşaqlar anlamasalar belə valideyinlərin onların yanında uca səslə kitab oxuduqda, körpə yaşından kitablara sevgi yaranır. Xüsusən də zehninin ən intensiv dövrü sayılan üç-altı yaşlar arasında bunu etmək, təqdirə layiq bir addımdır. Yuxarıda sadəcə kitab oxumağın üstün cəhətlərindən yazıldı, bir də oxunmadığı təqdirdə ola biləcək gerilikdən bəhs edildi. Bunlarla yanaşı bir də mütaliə üçün səhv seçimin yaratdığı fəsadlar vardır, ki bu oxucuda fikir qarışıqlığına yol açır, onu ümidsizliyə sövq edir və hər şeyə şübhəylə yanaşan birinə çevirir. Bundan əlavə pis vərdişlərin yaranmasına səbəb olur. Heç bir elmi əsası olmayan, şübhələrlə, yalan və böhtanlarla dolu əsərlər şübhəsiz ki, oxucusunda mənfi nəticələrə yol açır. Bunun üçün də oxunacaq kitabı seçərkən diqqətli olmaq lazımdır. Bu sahədə təcrübəsi olanların məsləhitinə baş vurulmalıdır. Hikmətli, asan başa düşülən və oxunduğunda adamı yormayan kitablara üstünlük verilməlidir. Kitabları oxunması baxımından üç qrupda ələ almaq olar.

**Birincisi stolüstü kitablardır**. Bunlar bir dəfə oxunaraq tərk edilən deyllər. Dönə-dönə mütaliə edilərlər. Qida kimidirlər, hər zaman onlara ehtiyac vardır. Quran yeganə kitabdır ki, şüurlu müsəlmanlar hər an Ona baş vurur, qiraətini tərk etmir,

qiraətindən heç bir zaman bezmirlər. Bu cür kitablar bir də müəyyən sahələrdə yazılmış əsərlər ola bilər ki, hər sahənin mütəxəsisləri tərəfindən stolüstü kitab kimi qəbul edilirlər.

**Ikincisi elmi-tədqiqat əsərləridir.** Bunlara da lüğətlər, ensklopediyalar, hər hansı bir elm sahəsinə aid yazılmış kitablar, terminoloji əsərlər və s. dir. Bu tip kitablar da dərman kimidir. Ehtiyac duyulduğu zaman baş vurulur bu cür kitablara.

**Üçüncüsü də ümumi deyə biləcəyimiz, mədəniyyət, fikir, tarix, ədəbi və s. sahələrlə bağlı olan kitablar, əsərlərdir.** Bunlar elmi tədqiqat obyekti olmaqla yanaşı həvəskarlar tərəfindən çox vaxt oxunur. Bu cür kitablar adətən ən çox müraciət olunan kitablar olur.

Nəşr olunan kitablar; mahiyyət etibarilə cəmiyyətdə və məktəbdə davranış qaydaları, milli, mənəvi öz köklərinə bağlı nümunəvi uşaqlıqdan doğan humanist gəncliyin yetişməsinə xidmət edir. Ən əsasıda dilimizə tərcümə olunub nəşr olunan bu kitablar dil, üslub, yığıcamlıq baxımından çox şirin, axıcı və oxunaqlıdır. Düşünürük ki, bu kitablarla uşaqlarımızın parlaq gələcəyinə qiymətli töhvələr bəxş edirik. Bir çox valideynlər övladlarının qətiyyən kitaba yaxın gəlmək istəmədiyindən şikayətlənirlər. Belə rəftarın çox sadə səbəbi vardır: uşaqlar sadəcə olaraq onlarda rahat alınan şeyləri xoşlayırlar və özlərini zəhmətə salmaq istəmirlər. Tez bir zamanda sürətli mütaliəyə alışmaq hər uşaqda alınmadığından, əziyyətlə hərfləri sözlərə bir-bir əlavə etməkdənsə, onlar rahatca televizor və kompüter qarşısında əyləşməyə üstünlük verirlər. Axı burada hər şey rahat anlaşılır və aydındır.

Öz uşaqlarında mütaliə sevgisini yaradacaqlarına ümidlərini itirməmiş valideynlər mütəxəssislərin məsləhətlərinə qulaq asmalıdırlar. Mütəxəssislər isə bildirirlər ki, əsas olan kitabın oxunma müddətinin uzunluğu deyil, mütəmadiliyidir. Yəni mütaliə uzun müddətli yox, qısa fasilələrlə və tez-tez olmalıdır. Çünki insan yaddaşı uzun müddət gözün qarşısında duran məlumatı yox, gözün önündən çəkilən və yenidən görünən məlumatı daha yaxşı yadda saxlayır. Övladınıza sürətli mütaliəni öyrətmək üçün onunla kiçik fasilələrlə (bir məşğələni 5 dəqiqəlik hissələrə bölərək) məşğul olun. Onu iki saat ardıcıl olaraq kitab arxasında oturmağa vadar etməyin, bu uşaqda kitab oxumağa qarşı nifrət yaradacaq. Çox vaxt valideynlər televizor və kompüterin rolunu düzgün qiymətləndirmirlər. Onlar belə hesab edirlər ki, bu əşyalar öz işlərini görüblər və uşağın oxumaq həvəsini həmişəlik öldürüblər. Valideynlər belə düşünərək uşaqlarında kitab oxumaq vərdişini yaratmağa cəhd də etmirlər. Belə yanaşma tərzi kökündən səhvdir: səbrlə, məcbur etmədən, uşaqda kitab oxumağa həvəs yaratmaq lazımdır. Uşağa kitabın məzmunu barədə bir qədər maraqlı məlumat verib marağını oyatmaq, amma tam məzmununu danışmamaq yaxşı üsuldur. Əgər onda maraq oyansa, çox ehtimal ki, özü kitabı götürüb əvvəldən axıra qədər oxuyacaq. Amma valideynlər görsələr ki, uşaq əvvəlki kimi yenə də oxumağa meyl göstərmir, onda qənaətli oxuma rejiminə keçmək lazımdır. Bu, o deməkdir ki,hər 2-3 sətirdən sonra bir qədər dincəlmək lazımdır. Burada silsilə şəkillərin çox xeyri ola bilər. Uşaq qısa mətni oxuyub şəklə baxar və dərhal növbəti mətnə keçər. Hətta qısa mətnləri valideyn və uşaq növbə ilə də oxuya bilərlər.

Uşağı sürətli mütaliəyə alışdırmaq üçün əla nəticə verən üsullardan biri də yatmazdan öncə kitab oxumaqdır. Məsələ ondadır ki, emosional yaddaş günün sonunda baş vermiş hadisələri ayırır və insan yatdığı zaman hələ də bu hadisələrin təsiri altında olur. Buna görə də beyin sürətli oxunuşu ayıracaq və tədricən ona alışacaq. Uşağın nə oxuduğu da çox önəmlidir. Pis kitab uşağın zövqünü korlaya bilər. Halbuki bu müddətdə uşaq yaxşı kitab oxuya bilərdi. Məhz bu məqamda uşaqların kitab seçimində valideyn nəzarəti çox vacibdir. Bu seçimi asanlaşdırmaq üçün sadəcə müəllimənin yay tətilində oxumaq üçün tapşırdığı kitabların siyahısını əldə etmək kifayət edər. Belə siyahılar ədəbiyyatşünaslar tərəfindən tərtib olunur və uşaqların yaşları nəzərə alınır. Valideynlər rahatlıqla orada qeyd olunan kitablardan istifadə edə bilərlər. Çox yaxşı olar ki, valideynlər həmçinin uşaqla kitabın məzmunu barədə müzakirə aparsınlar. Bu iş həm nitqin inkişafına, həm də məzmunun düzgün anlaşılmasına kömək edir və mühüm tərbiyəvi əhəmiyyətə malikdir. Uşaqların sürətli oxu qabiliyyətinə yiyələnmələri və kitaba sevgi bəsləmələri üçün valideynlərdən böyük səbr və dözüm tələb olunur.

Əksər Avropa ölkələrində istirahət mövsümü kitab oxumaq üçün fürsət hesab olunur. Amma bu gün çoxumuz nəinki istirahət mövsümündə, heç bikarçılıqdan ürəyimiz sıxılanda da kitab oxumaq barədə düşünmürük. Günümüzün çoxunu ya çayxanada, ya kompyuter arxasında, ya da televizor qarşısında keçiririk. Hələ mən kitaba pul xərcləyənlərə cəmiyyətimizdə birtəhər baxılmasından danışmıram. Halbuki kitab oxumağın insan psixologiyasına və səhhətinə bir sıra müsbət təsirləri var… «Kitab oxuyarkən ürək Döyüntüsü normallaşır» Kitab oxumağın orqanizmə faydasını araşdıran britaniyalı mütəxəssislər də maraqlı nəticələr əldə ediblər. Onların qənaətinə görə, cəmi 6 dəqiqə kitab oxumaq insanda stresin səviyyəsini üç dəfə azaldır: "Başqa üsullarla müqayisədə kitab oxumaq insanı daha tez sakitləşdirir və yüngülləşdirir". Mütəxəssislərin araşdırmalarına görə, qiraət edərkən əzələlərin gərginliyi aradan qalxır və ürək döyünməsi normallaşır. Kitablar uşaqların zehinlərinin, hisslərinin, danışıq qabiliyyətinin inkişafında da önəmli rol oynayır. Kitab oxumaq uşağın təxəyyülünü genişləndirir, daxili dünyasına müsbət təsir göstərir.Oxuyanın mənəvi inkişafına fayda verəcək kitablar eyni zamanda onun vəsvəsəyə qapılmasını və ümidsizliyə düşməsinin qarşısını alır. Bu cür kitablar oxuyaraq özünü yetişdirmiş biri təmiz bir zehniyyətə sahib olduğu üçün doğru ilə yanlışı, pislə yaxşını çox keçmədən asanlıqla anlayar. Unudulmamalıdır ki, kitablar fikir müharibəsinin silahlarıdır. Oxuyan və oxuduğunu yaxşı dəyərləndirməyi bacaran insan hər zaman öndədir, fərqlidir, mübahisə və müzakirə bacarığı yaxşı olan biridir.

Uşaq oxucuları əsasən üç qrupa (2-7 yaş, 7-12 yaş, 12- 17 yaş) bölünür. Bu kitabxanaların iş təcrübəsində uşaq mütaliəsini təhlil edərkən uşaqların mədəni, intellektual və psixoloji inkişafına daha çox təsir göstərən ədəbiyyat növlərinə, janr və müəlliflərə xüsusi diqqət yetirmək lazımdır. Çünki uşaqlarda mənəvi aləmin formalaşmasında, şəxsi keyfiyyətəlrin inkişaf etməsində bədii ədəbiyyatın, nağılların rolu xüsusilə yüksəkdir.

***Uşaqların psixoloji inkişafı üçün nağılların əhəmiyyətli rola malikdir:***





Folklor uşaqlarda psixoloji diskomfort hissini uzaqlaşdırmağa kömək edir, onların fantaziyasına qida verir. Nağıllarda başqa ədəbiyyatlardan fərqli olaraq, uşaqların xarakterinin inkişafı üçün vacib nümunələr göstərilir. Uşaq ədəbiyyatının mütaliəsi uşaqlarda biliyə həvəsin, müşahidəçiliyin və diqqətin inkişafına əsaslı təsir göstərir, dərketmə prosesini emosianal cəhətdən rəngarəng edir. Uşaqlara mütaliə etmək üçün ilk növbədə daha sadə ədəbiyyatı tövsiyə etmək zəruridir. Eyni zamanda uşaqlarla böyüklərin birgə mütaliə edəcəkləri kitablara da xüsusi diqqət yetirmək vacibdir.

Uşaq mütaliəsini təşkil edərkən qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların və ibtidai sinif şagirdlərinin mədəni, intellektual və psixoloji inkişafı əsasən onların özünün inkişafa meyilli olması və ətraf aləmi tanımağa olan tələbatı ödəmək üçün oxunmuş kitablar haqqında söhbətlər, müsabiqələr, ədəbi oyunlar, mühazirələr və s. daxildir.

Uşağın böyüməsində əsas məsələ, onda özünü müsbət qiymətləndirmənin inkişafıdır. Başqa sözlə uşaq özündə şəxsi mənlik hissinin inkişafına böyük ehtiyac duyur ki, bu da onun gələcəkdə xoşbəxtliyinə, effektli yaşamasına və işləməsinə səbəb olur. Özünü pis və köməksiz hiss edən uşaqlar böyüklərin tələblərinə uyğun olmaları və «mənsizlik» olmamaları kimi fikirlərdən əzab çəkirlər. Belə uşaqlar heç vaxt özlərində pozitiv, fərdi və mədəni keyfiyyətləri inkişaf edirə bilmirlər» Şübhəsiz ki, suallar və məsəllər sistemi əsasında yazılmış kitablar haqqında söhbətlər çox əhəmiyyətlidir. Belə kitablar nəinki uşaqların yaddaş və diqqətin nə dərəcədə inkişaf etməsini müəyyənləşdirir, eyni zamanda əsərin ideyasını daha dərindən başa düşməyə, baş verən hadisələri öz təsəvvürləri ilə müqaisə etməyə və real qiymətləndirməyə imkan verir. Bunlardan əlavə söhbətlər zamanı uşağın lüğət bazası zənginləşir, nitqi formalaşır, mütaliə edilmiş ədəbiyyata öz münasibətini bildirir, məntiqi olaraq düşünür. Oxunmuş ədəbiyyatın mütaliədən dərhal sonra və bir neçə müddətdən sonra müqayisə edilməsi uşağın uzunmuddətli və qısamüddətli yaddaşını inkişaf etdirməyə kömək edir. Belə söhbətlərin sistemli olaraq aparılması ona gətirib çıxarır ki, edilən hər bir növbəti mütaliə daha yaradıcı və məqsədyönlü olur. Kitabxananın ən mühüm funksiyalarından biri informasiya funksiyasıdır. Uşaq mütaliəsinin təşkilinə tətbiq edilən bu kitabxana funksiyasının reallaşmasının əsas istiqaməti uşaqların kitablarla işləməsi üçün rahat, lazımi şəraitin yaradılmasıdır. Məlumdur ki, məktəbəqədər yaşlı uşaqların psixologiyasının inkişafına daha çox

rəngarəng, qeyri-adi faktlar və onlara əvvəllər məlum olmayan biliklər güclü təsir göstərir. Uşaqlarda mütaliəyə olan marağın inkişaf etməsi üçün müasir nəşriyyatlar kitabxanaçıların qarşısında geniş imkanlar açır. Əsas şərt odur ki, belə nəşrlər kitabxanaların fondlarında özünə yer tapsın və sərgilərdə nümayiş etdirilsin. Bu kitablarla tanışlıq uşaqların qavrayışını, təxəyyül və yaddaşını inkişaf etdirir. Uşaqlarla işləyərkən onların müxtəlif tipli və janrlı ədəbiyyata olan marağını qoruyub saxlamaq və inkişaf etdirmək zəruridir. Bunu əyani təbliğatın, kitab-illüstrasiya sərgilərinin, tövsiyə siyahılarının köməyi ilə həyata keçirmək olar. Uşaqlarla kitabxana işinin əsas xüsusiyyətlərindən biri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə əsaslanan əyani təbliğatdır. Əyani təbliğatdan məqsədyönlü şəkildə istifadə olunması uşaq kitabxanasında ənənəvi funksiyaların reallaşmasını tələb edir. Bunlardan əksəriyyəti yeni texniki vasitə və imkanların yaradılması ilə əlaqədar yeni inkişaf istiqamətləri və ciddi dəyişikliklərə uğramışdır. Bu üstün cəhət uşaq kitabxanalarının təhsil, tərbiyə və informasiya funksiyalarının həllində əyani təbliğatdan istifadə etməyin səmərəliliyini əsaslandırmağa və aşkara çaxarmağa imkan verir. Məhz buna görə də uşaq kitabxanalarında əyani təbliğatdan istifadə bütövlükdə uşaqlarda kitabxana işinin effektivliyini təmin etməyə yönəlmiş səylərin əsasını təşkil edir. Uşaq kitabxanalarında əyani təbliğatdan istifadə müasir dövrdə xüsusilə aktuallıq kəsb edir. Bu iş kitabxanalarda sistemli şəkildə aparılmalıdır. Çünki, sistemli yanaşma əyani təbliğatın tətbiqinin səmərəliliyinin nəzəri əsasını təşkil edir. Uşağa əyani vasitələrlə yanaşmaqla biz onlara olan münasibəti daha səmərəli edirik, onlara bir şəxsiyyət kimi hörmət göstəririk. Nəticədə mütaliə prosesi zamanı oxunan ədəbiyyatın emosional, estetik tərbiyəvi xüsusiyyəti oxucuya daha çox təsir edir. Qeyd edək ki, uşaq kitabxanalarında əyani təbliğatdan istifadə uşaqlarda obrazlı təfəkkürün inkişafına və mütaliə prosesinə estetik yanaşmaya əsaslı təsir göstərir. Müasir dövrdə əksər uşaqlar virtual vasitələrdən istifadə etməklə informasiya əldə edə bilirlər. Hətta son zamanlar kitabxanalarda kompüter texnologiyasına əsaslanaraq fəaliyyət göstərən şöbələr daha çox üstünlük qazanırlar. Sözsüz ki, kompüterlə gündəlik iş uşaqlara informasiya əldə etməyin spesfik metodlarını öyrənir. Lakin, bu halda uşaq mütaliəsi dərin biliklərin qazanılmasına əsaslanmır. Buna görə də kitabxanaların əsas vəzifəsi uşaqları ənənəvi mütaliə üsullarına yönəltməyə istiqamətləndirib. Kitabxanalar mədəniyyət instinktinin etibarlı saxlanması üçün uşaqları ənənəvi mütaliəyə qaytara bilər. Çünki, məhz mütaliə uşaqların əldə etdikləri biliklərin uzun müddət hafizədə qalması üçün ən etibarlı vasitədir. Eyni zamanda uşaqlara çap əsərlərinin elektron versiyalarından istifadənin təşkili problemi və bu tipli mütaliə mədəniyyətinin formalaşması problemi həllinə ciddi ehtiyac duyulan problemlərdir. Bu problemlər mütəxəssislərdən xüsusi tədqiqatların aparılmasını tələb edir.

Bu gün qlobal informasiya məkanında kitabxanalar milli, beynəlxalq, regional informasiya mübadiləsi sisteminin yaradılıb inkişaf etdirilməsində, informasiya və bilik bazarının yaradılmasında, cəmiyyətin peşə və ümumi mədəni, intellektual səviyyəsinin yüksəldilməsində mühüm rol oynayırlar. İnformasiya cəmiyyəti və biliklər cəmiyyətinin qurulmasında kitabxanaların üzərinə böyük vəzifələr düşür. Kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti göstərən yeganə sosial

institutdur. Məhz kitabxanalar vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Ümumiyyətlə, kitabxana-informasiya şəbəkəsinin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, onların fasiləsiz təhsilə və informasiyaya olan tələbatının ödənilməsinə imkan yaradır.

Kitabxanalar qloballaşan dünyanın, ümumilikdə informasiya cəmiyyətinin ayrılmaz tərkib hissəsidir. Hazırda kitabxanalarda CD fondları yaradılmaqdadır. Bu gün informasiyanın saxlanması, işlənməsi və ötürülməsi sahəsində yeni texnologiyalar tətbiq edilmədən kitabxana sahəsinin inkişafı mümkün deyildir.

İnformasiya resurslarından faydalanmaq, uşaqlara yeni bilik və vərdişlərin aşılanması, lazımi tövsiyələrin verilməsi kimi vasitələrdən geniş istifadə olunub. Əhalinin kitaba və kitabxanalara marağının artırılmasında respublika və ümumşəhər əhəmiyyətli mədəni-kütləvi tədbirlərin mühüm rolu vardır. Hər il ənənəvi olaraq keçirilən kitab bayramları, kitab sərgiləri, müsabiqələr, sənət adamlarının yubileyləri, kitabtəqdimatları məhz bu məqsədə xidmət edir.

Müasir dövrdə kitabxana işçiləri, metodistlər kitabxanaların metodik təminatı anlayışının mahiyyətinin dərindən dərk edilməsi üçün müasir dövrdə dünya informasiya məkanında baş verən yeni prosesləri, bu proseslərlə əlaqədar kitabxanaların fəaliyyətində meydana gələn konseptual dəyişiklikləri dərindən öyrənir və tətbiq edirlər. Məlum olduğu kimi, son illər kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi – texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi, dünya kitabxanaları ilə faydalı əlaqələrin qurulması istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər görülür.



Uşaq və məktəb kitabxanalarının metodiki mərkəzi olaraq F.Köçərli adına kitabxananın əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər gətirmək, uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünya görüşünü artırmaq, onların daha savadlı, daha zəkalı böyüməsinə təkan verməkdir.Uşaqları mütaliəyə cəlb etmək üçün ənənəvi üsullarla yanaşı, müasir formalardan da istifadə etmək lazımdır. Ancaq ənənəvi təbliğatı da müasir dövrün tələblərinə uyğun olaraq həyata keçirmək lazımdır. F.Köçərli adına Respublika Uşaq kitabxanası informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edir. Yəni kompyuter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edirlər.Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası Azərbaycanda uşaqlara xidmət göstərən bütün uşaq kitabxanaları üçün elmi-metodik mərkəzdir. F. Köçərli adına Respublika Uşaq Kitabxanası öz iş prosesini dünya kitabxanaları səviyyəsinə çatdırmağa səy göstərir. F. Köçərli adına RUK- sı respublika uşaq kitabxanalarının işini toplayıb analiz və sintez edir, onların hesabatını hazırlayıb rəhbər orqanlara çatdırır, elmi-tədqiqat işləri aparılır, qabaqcıl

təcrübəni bütün ölkəyə yayır, rayonlara ezamiyyələr edir, yeni layihələrin işlənməsində və kitabxananın tədbirlərində yaxından iştirak edir. Elmi-metodika şöbəsində ixtisasa aid elmi-kütləvi yazılar, əlamətdar və tarixi günlərlə bağlı metodik vəsaitlər çap olıunur və bu vəsaitlər uşaq kitabxanalarına göndərilir. Yubiley günləri ilə bağlı yazılarda görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin kitabxana-biblioqrafiya qaydası ilə təbliğ olunmasının metodikası verilir. Bu məqsədlə saytımızda(www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılır. Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. F. Köçərli adına Respublika Uşaq Kitabxanasının qarşısında duran mühüm vəzifələrdən biri oxuculara metodika, biblioqrafiya və elmi informasiya xidmətini dünya kitabxanaları səviyyəsinə qaldırmaq, oxucuların tələbatını ödəmək üçün yeni informasiya texnologiyalarını tətbiq etmək, İnternet şəbəkəsinin elektron ehtiyatlarından istifadə etməkdir.

6 noyabrdan 18 noyabra qədər oxucularda informasiyaya tələbatın nə dərəcədə olduğunu öyrənmək məqsədilə kitabxanamızda “Bilmək istəyirik ki...” adlı rəy sorğusu keçirildi. Rəy sorğusu oxucuların yaş səviyyəsini nəzərə alaraq iki formada-məktəbəqədər və kiçik yaşlı oxucular üçün ayrı, orta və böyük yaşlı oxucular ayrı tərtib olunmuşdu. 87 oxucu arasında aparılan rəy sorğusundan belə məlum oldu ki, onlarda nağıllara, bədii ədəbiyyata maraq güclüdür. Oxucular əsasən kitabxanaya dərs tapşırıqlarını yerinə yetirmək məqsədilə gəlsələr də yeni ədəbiyyatla da maraqlanır və oxuyurlar. Rəy sorğusunda hansı nağılı və yaxud əsəri sevdiklərini və nə səbəbdən həmin əsərin qəhrəmanına bənzəmək istədiklərini qeyd ediblər. Sorqudan bir daha məlum olur ki, kitabxnaya gələn oxucular kitabxanamızda tərtib olunmuş kitab sərgiləri ilə tanış olur və kitabxanamızın xidmətindən razıdırlar. Bundan əlavə şöbəmiz tərəfindən oxucuların informasiya tələbatını öyrənmək, uşaq ədəbiyyatının oxucular arasında təbliği və mütaliəyə həvəsi artırmaq məqsədilə “Oxucu və kitabxana” adlı rəy sorqusu tərtib olunmuş və Bakı şəhər uşaq kitabxanaları – 13 kitabxana arasında monitorinqlər keçirilmişdir. Kitabxanada və kitabxanadan kənar apardığımız şifahi sorğulara əsasən oxucular onu da qeyd edir ki, kitabxanada internet şəbəkəsinin olmağı vacibdir. Əgər internet şəbəkəsi fəaliyyət göstərərsə onlar bəzi informasiyalara görə internet klublara üz tutmazlar. Müşahidə apardığım kitabxanaların hamısında uşaq ədəbiyyatına və uşaq dövrü mətbuatına ehtiyac çoxdur. Kitabxanalarda uşaq ədəbiyyatını prezidentin sərəncamı ilə çap olunan, Milli Kitabxanadan və bizim kitabxanadan hədiyyə verilən kitablar təşkil edir. “Beşik”, “Tutu”, “Çaşıoğlu”, “Altun” və s. nəşriyyatlardan bu kitabxanalarda uşaq ədəbiyyatı yox dərəcəsindədir. Heç bir kitabxanada internet şəbəkəsinə, az sayda kompüter avadanlığına rast gəlindi.

Müşahidələr göstərir ki, kitabxanalarda şifahi xalq ədəbiyyatına- “Koroğlu” dastanına, Paşa Əfəndiyevin “Azərbaycan Şifahi Xalq Ədəbiyyatına”, nəfis tərtibatlı əlvan uşaq nağıllarına- Ş.Pero, Andersen, Hofmanın kitablarına, xarici ədəbiyyata – Molyer, Drayzer, Qalileo Qalileyin “100 il tənhalıq” əsərinə, rus ədəbiyyatına, Azərbaycan klassiklərinin rus dilində olan əsərlərinə, Ziya Bünyadovun “Azərbaycan tarixi” kitabıına, təbiət üzrə ədəbiyyatlara, intellektual, əyləncəli oyunlara, məktəb

proqramı ilə bağlı testlərə tələbat böyükdür. Bunlarla yanaşı oxucuların çox hissəsi bədii ədəbiyyatın mütaliəsinə ilə də məşğul olurlar. Yazıçı Varisin, Çingiz Abdulayevin və bir çox yazıçıların yeni kitablarının kitabxanada az olmasından şikayətləndilər. Qeyd edim ki, bu ədəbiyyatlar kitabxanalarda vardır, lakin tələbat çox olduğundan kitab çatışmamazlığı oxucuları qane etmir. Hər bir kitabxanada səyyar xidmət fəaliyyət göstərir. Kitabxanalar ərazilərinə yaxın məktəb və bağçalara səyyar xidmət göstərir. Məruzəmin sonunda qeyd etmək istəyirəm ki, monitorinq keçirdiyim kitabxanalar imkan daxilində uşaq ədəbiyyatı, uşaq dövri mətbuatı və texniki avadanlıqlarla təmin olsun. Belə olarsa kitabxanalarda oxucuları mütaliəyə cəlb edilməsi və işin keyfiyyəti daha yüksək olar.

İnformasiya texnologiyasından istifadəyə axın güclənidiyindən oxucular informasiyanı bir neçə mənbədən (kitab və internet) almağı üstün tuturlar. Bununla əlaqədar olaraq oxucularda mütaliəyə həvəsi artırmaq məqsədilə metodistlər ictimaiyyət və oxucular arasında ilin sonunda “Kitab və internet” mövzusunda sorgu keçirmişdir.

Apardığımız sorğu nəticəsində bir çox suallarımıza cavab tapdıq. Məlum oldu ki, oxucuların çox hissəsi daha çox kitabı ənənvi qayda ilə oxumağa üstünlük verdi, amma bununla yanaşı kitabxanada internet şəbəkəsinin olmasını vacib və internetdə kitab sifariş verib oxumağin rahat olduğunu da qeyd etdilər.



Informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun dəyişdirilməlidir. Xüsusilə də bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Belə ki, uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu da onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, istiqamətləndirmək zəruridir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyəti tərbiyəsi formalaşdırılması ilə həm ailədə, həm də pedoqoji qaydada məktəblərdə və kitabxanalarda məşğul olunmalıdır. Çünki bu günün uşağı gələcəkdə bu resurslarının istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan bilavasitə asılıdır. Bu zaman uşaqlara fərqli yanaşmaq vacibdir. Çünki onlar kitabxanaçının köməyinə həmişə dərin ehtiyac duyurlar.

Şəxsiyyətin formalaşmasında mütaliənin rolu danılmazdır. Mütaliə oxucunun hərtərəfli inkişafına – onun mədəni səviyyəsinin və biliyinin artmasına, söz ehtiyatının zənginləşməsinə, nitq mədəniyyətinin inkişafına kömək edir, onların fərdi marağını, əqli, zehni, əxlaqi və estetik zövqünü təmin edir və inkişafında əvəzsiz rol

oynayır. Bu mütaliə istiqamətləndirildiyi və ona lazımi rəhbərlik edildiyi zaman daha təsirli olur.

Müasir uşaq kitabxanalarında mütaliəyə marağı artırmaq məqsədilə ənənəvi və texnoloji iş xüsusiyyətləri tətbiq edilir. Lakin uşaq mütaliəsinin təşkili ənənvi metodlara daha çox söykənir. Çünki hər bir kitabxanada müasir texniki avadanlıqlar, kompüterlər yoxdur. Bu gün kitabxanada texniki vasitələrlə (İNTERNET siniflər, İNTERNET klublar, kompüter kitabxanaları) informasiya alınması oxucular üçün daha əlverişlidir. Sözsüz ki, kompüterdən istifadə yeni savad formasını tələb edir və kompüterlə gündəlik iş oxucuları xüsusi metodla informasiya almağa yönəldir. Belə yeniləşmə mütaliəyə rəhbərlik edən kitabxana işçilərindən xüsusi tədqiqatlar aparılmasını və tövsiyələrin işlənməsini tələb edir. Qeyd etdiyim kimi oxucularda mütaliəyə həvəsi artırmaq məqsədilə müasir kitabxanalar kompüter, televizor, video və audio maqnitofonlarla, CD, DVD və kassetlərlə təmin olunmalıdır. Kompüterdən 7 yaşına qədər uşaqlar yalnız valideynlərinin razılığı ilə 15-20 dəqiqədən çox olmayaraq istifadə edə bilər. Orta və yuxarı yaş qrup oxucular kompüterdən internet vasitəsilə informasiya almaq üçün, balaca oxucularımız isə kompüterdən hələlik nağıllara qulaq asmaq, nağıllar əsasında çəkilmiş cizgi filmlərinə tamaşa etmək, diqqət və təfəkkürü inkişaf etdirmək üçün mövcud olan oyunları oynamaq üçün istifadə etsinlər. Və kitabxanaçı bu avadanlıqlardan məharətlə istifadə etməli, onların marağına uyğun olan nağılları oxuculara təqdim etməlidir.
Gənc nəslin hərtərəfli inkişaf etməsi, mənəvi cəhətdən gözəl olması üçün məhz uşaq ədəbiyyatının mütaliəsi zəruridir.

"Kitabxana işi haqında" 12 mart 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasinda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafi üzrə" Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli, "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli, 24 avqust 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təsdiq edilmiş siyahı üzrə latın qrafikası ilə nəşr olunmuş kitablar ölkənin bütün kitabxanalarına hədiyyə edilmişdir. Bu qərarların qəbul olunması və tətbiq olunması kitabxana işində bir çox nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur. Belə ki, kitabxanalar müasir texniki avadanlıqlarla təmin olunmuş, kitabxanaların avtomatlaşdırılması prosesi gücləndirilmiş, kitabxanalarda yeni texnologiyaların tətbiqi və istifadəsinə start verilmişdir. Ölkəmizdə kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılmasına, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılmasına, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafına, habelə fasiləsiz təhsilin təmin edilməsinə şərait yaradılmışdır.Bildiyimiz kimi kitabxanalarda informasiya

daşıyıcıları və digər ənənəvi sənədlər qorunub saxlanılır. Kitabxana, həm də oxucunun mütəmadi olaraq mütəxəssis köməyindən istifadə etdiyi bir yerdir. Harada ki, bir sıra ən yaxşı müasir nəşrlərlə yanaşı keçmiş nəsillərin də sevimli kitabları saxlanılır. Burada informasiya axtarışında köməyə müasir texnika gələ bilər. Ancaq ən əsası- kitabxana insanın həmişə qayıtmaq istədiyi bir yerdir. Yeni texnologiyaları tətbiq etdikdə biz uzun illər ərzində əldə etdiklərimizi məhv etməməyə çalışırıq, əksinə ənənəvi materialları daha da əlverişli, zəngin etməyə və mövcud olan materialların inkişafını göstərməyə çalışırıq. Kitabxana tərəfindən edilən hər bir yenilik hər şeydən əvvəl oxucuya yönəldilir. Ümumiyyətlə, müasir kitabxana işini yeni informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək bir qədər çətindir. İnformasiya və kommunikasiya texnologiyalarının insan fəaliyyətinin bir sıra sahələrində olduğu kimi kitabxana işində də tətbiqi ənənəvi kitabxana proseslərinin sürətlənməsinə və avtomatlaşmasına gətirib çıxarır.

Qeyd edim ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası avtomatlaşdırma sahəsində böyük nəticələr əldə etmişdir. Kitabxanada 2005-ci ildən fəaliyyət göstərən avtomatlaşdırma şöbəsi İRBİS-64 AKİS-in "İnzibatçı", "Komplektləşdirici", "Kataloqlaşdırma", "Oxucu qediyyatı", "Kitab verilişi", "Tammətnli" modulları əsasında müvəffəqiyyətlə öz işini qurmuşdur. İRBİS-64 sistemi fərqli verilənlər bazasını yaratmağa, informasiya massivində tammətnli axtarışın təşkilinə və ən əsası mövcud materiallarla internet, lokal şəbəkə və s. vasitəsi ilə girişin təmin olunmasına tam zəmanət verir. Həmçinin İRBİS-64 AKİS vasitəsilə əsas texnoloji proseslər-kataloqlaşdırma, ədəbiyyatın lokal şəbəkədə və internetdə axtarışı və sifarişi, kompüter vasitəsilə oxuculara xidməti həyata keçirir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcəkdir. Yəni kompüter texnologiyalarının tətbiqi və informasiya daşıyıcılarından istifadənin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edəcəkdir.



Son illər müasir uşaq kitabxanalarında mütaliəyə marağı artırmaq məqsədilə ənənəvi və texnoloji iş xüsusiyyətləri tətbiq edilir. Lakin uşaq mütaliəsinin təşkilində ənənəvi metodlardan daha çox istifadə olunur. Çünki hər bir kitabxanada müasir texniki avadanlıq və kompüter yoxdur. Bu gün kitabxanada texniki vasitələrlə (internet, elektron resurs) informasiyanın əldə edilməsi oxucular üçün daha vacib və əlverişlidir. Sözsüz ki, kompüterdən istifadə yeni savad formasını tələb edir və kompüterlə gündəlik iş oxucuları xüsusi metodla informasiya almağa yönəldir. Belə yeniləşmə mütaliəyə rəhbərlik edən kitabxana işçilərindən xüsusi tədqiqatlar aparılmasını və tövsiyələrin işlənməsini tələb edir. Bundan əlavə oxucularda mütaliəyə həvəsi artırmaq məqsədilə müasir kitabxanalarda multimedia zalının yaradılması olduqca vacibdir. Multimedia zalını yaratmaq, kitabxanalarda elektron oxu zallarının təşkili, bütün kitabxanaların internetə qoşulması, əhalinin

müxtəlif təbəqələrinin internet vasitəsi ilə informasiya alması kitabxanalar qarşısında duran ümdə vəzifələrdəndir.

Multimedia – interaktiv proqram təchizatının idarəsi, müasir texniki və proqram vasitələrinin köməkliyi ilə vizual və audio effektlərin qarşılıqlı əlaqəsidir. Onlar mətn, səs, qrafik, foto, videonu rəqəmsal təsəvvürdə birləşdirir. Multimedia termini, əsasən əhəmiyyətli dərəcədə irihəcmli məlumatları saxlayan və bu informasiyanı daha tez əldə etməyə inkan verən informasiya daşıyıcılarının istifadəsidir.

Multimedia zalı  ilk növbədə kitabxananın geniş və işıqlı otaqlarından birində təşkil olunur. Zalın sahəsinə görə kompüter stolları və informasiya daşıyıcıları üçün xüsusi rəflər yerləşdirilir. Rəflərə CD, DVD diskləri, audio, video kasetlər düzülür. Yaxşı olardı ki, zalın tavan hissəsindən aşağıya doğru proyektor və ekran quraşdırılsın, çünki zalda təqdimatların keçirilməsində proyektordan istifadə olunur. Bundan başqa zalda audio, video maqnitofonlar, kamera, skaner, printer, televizor, surətçıxarma aparatının yerləşdirilməsi də vacibdir. Multimedia zalının fondunda müxtəlif yaş qrup oxucular üçün müxtəlif sahə üzrə- məlumat nəşrləri -("Ayna" Mətbu evi), ensiklopediyalar, lüğətlər, soraq kitabları, dərs poqramı əsasında hazırlanmış disklər, məntiqi oyun diskləri yer tutmalıdır. Multimedia zalına ayrılmış xətt üzrə daimi internet şəbəkəsi qoşulmalıdır.



F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Biləyən" multimedia zalı 2002-ci ildən fəaliyyət göstərir. Kitabxanamız audio-vizual nəşrlərin komplektləşməsinə böyük diqqət ayırır. Multimedia zalı əsasən məktəbəqədər və kiçik yaşlı oxuculara xidmət göstərir. Zalın əsasən fondunu musiqi, təbiət və nağıllarla bağlı CD, DVD diskləri təşkil edir. Hal-hazırda multimedia oxu zalında 240-dan çox nüsxəsi olan CD-ROM üzrə nəşrlər fondu var. Fondun formalaşdırılması əsasən oxucu sorğularına görə həyata keçirilir. Bura elmi-tədris proqramları, ensiklopediyalar, lüğətlər, məlumat kitabçaları, intellektual oyun proqramları daxildir. CD-ROM  fonduna həmçinin daxildir: xarici dillərin öyrənilməsi üçün nəşrlər və elmlər üzrə bir sıra ensiklopedik nəşrlər. Fondda, dərs vəsaitləri, tarixi şəxsiyyətlər və incəsənət üzrə nəşrlər geniş yer tutur. (Azərbaycan tarixi, Zoologiya, Kimya, Biologiya, Botanika, Heydər Əliyev, Üzeyir Hacibəyov, Qara Qarayev, Fikrət Əmirov, "O olmasın, bu olsun", "Arşın mal alan", "Leyli və Məcnun" və s.). Böyük Britaniyanın OXFAM Beynəlxalq humanitar təşkilatı layihə əsasında kitabxanamızın multimedia zalında bir çox kitabların, qəzetlərdə dərc olunmuş maraqlı hekayələrin, nağılların audio kasetlərindən ibarət fondunu (700 nüsxə) təşkil etmişdir. Dəfələrlə kitabxananın ərazisində yerləşən 42, 258, 36, 152 saylı məktəblərin ibtidai sinif müəllimləri sinifləri ilə birlikdə qrup halında "Danışan kitablar"a qulaq asmışlar.



Oxuculara informasiyanın axtarılması və informasiya texnologiyalarından düzgün istifadə etməyi öyrətmək və multimedia zalına maraq oyatmaq üçün kitabxanalarda kursların təşkili vacibdir. İlk belə kurs “Kitabxanada uşaqlar üçün internet-sinfin açılması” layihəsi əsasında hazırlanmışdı. Həmin kurslar 2001-ci ilin avqustunda Açıq Cəmiyyət İnstitutu tərəfindən həyata keçmişdir. Belə ki, kitabxanamızın hazırladığı layihə qrant udmuş və qranta əsasən kitabxanamız üçün 7 kompüter, 1 skaner, 1 printer əldə etmişdi. 2002-ci ilin yanvarın 15-dən başlayaraq hər ayda 48 uşaq olmaqla avqustun 15-nə qədər “Kompüterin əsasları və internet” kursu keçilmişdir. 49 məktəb və 4 liseydən kursa gələnlərin sayı 336 olmuşdur. 10 dərs proqramı çərçivəsində keçirilən kursa gələn oxucular anket vərəqəsini doldurur, sonda isə kurslar haqqında öz fikirlərini bildirirdilər. Bundan başqa multimedia zalında keçirilən kurslarda biz uşaqlara müxtəlif proqramlarla işləməyi öyrədir, onları informasiyanın axtarış sisteminin imkanları ilə də tanış edirik. Dərslərdə kompüterdən, CD, DVD disklərindən, printer, skanerdən istifadə metodlarını öyrətməklə yanaşı, kompüter proqramları- “Microsoft Office” proqramları haqqında da məlumat veririk. Məsələn: məşğələdə uşaqlar Microsoft Power Point proqramını öyrənməklə həmin proqramın köməyi ilə kitabın təqdimatını hazırlayırlar. Oxucular bu dərslərdə əldə etdikləri biliklə yanaşı, bacarıq və intellektual qabiliyyətlərini də formalaşdırırlar. Kitabxanada oxucu multimedia məhsullarının passiv istifadəçisi yox, aktiv qərar qəbul edən informasiya istifadəçisi olmalıdır.

Qeyd: Uşaq kitabxanaları multimedia zalı təşkil edərkən zala istədikləri adı verə bilərlər. Məsələn, bizim kitabxana multimediya zalına “Biləyən” adı vermişdir. Başqa kitabxanalar “Çoxbilmiş”, “Bilicilər” və s. adla multimedia zalını adlandıra bilər.

Ümumilikdə oxucular multimedia zalında aşağıdakı xidmətlərdən istifadə edə bilər:

1. CD-ROM, DVD proqramları ilə iş. Bu disklər informasiyanın oxunmasını, köçürülməsini, saxlanmasını təmin edir. CD-ROM diski ilə yanaşı artıq CD-RW (çoxdəfəlik) diskləri də vardır. Eyni zamanda bu disklərə yazılmış musiqilərə qulaq asmaq, videofilmlərə baxmaq olar.
2. Elektron resurslarla iş. Oxucuların informasiya təminatını daha çevik və dolğun ödəmək üçün kitabxana tərəfindən yaradılmış və ya müxtəlif nəşriyyat və informasiya təşkilatlarından alınmış məlumat bazasıdır. Elektron resurslara elektron kataloq, elektron kitab və elektron kitabxanaları aid etmək olar. Elektron kitabxana elektron kitablar, həmçinin kitabxananın elektron kataloqda yaratdığı məsələn, “Ekologiya, “Turizm”, “Müstəqillik”, “”Qızıl fond, “Bakı və bakılılar”, “Ölkəşünaslıq” və s. bazalar vasitəsilə oxuculara uzaq məsafədən sərbəst axtarış apararaq kitabı on-line oxumağa imkan verir.
3. İnternetdə axtarış. İnternet ümumdünya əlaqə sistemidir. İnternetdən informasiyanın ötürülməsi və qəbul edilməsi üçün istifadə olunur. İnternetdə istənilən mövzuda axtarış aparmaq mümkündür. Bunun üçün açar sözü daxil etmək və axtarış düyməsini basmaq lazımdır. Nəticədə açar sözü əhatə edən

məlumatlar ekranda görünür. Bu məlumatlar gördüyümüz ənənəvi kitabxanada ədəbiyyat siyahıları rolunu oynayır. Axtatışı www.google.az, www.rambler.ru, www.mail.ru, www.yandex.ru və s. saytlarında aparmaq olar.

4. İnformasiyanın e-mail poçt vasitəsilə ötürülməsi və saxlanması. İnternetin sistem kimi fəaliyyət göstərməsində əsas rolu elektron poçtu oynayır. Elektron poçt (e-mail)- internetin bu xidmətindən daha çox istifadə olunur. Xidmətin təminatı ilə internetdə xüsusi poçt serverləri məşğul olur.

   Poçt serverləri məlumatları oxucudan alır və poçt serverlərində toplayaraq müəyyən sıra ilə düzülmüş ünvanlara çatdırır. Poçt serverləri ilə oxucu arasında bu əlaqə avtomatik həyata keçirilir. Elektron poçtu vasitəsilə göndərilən məlumat bir neçə dəqiqədən sonra məkanına yetişir. Elektron poçtunun aşağıda göstərilən variantlarından istifadə edirlər:

   - Adi məktublaşma – burada e-mail vasitəsilə insanlar arasında məlumatların və faylların mübadiləsini təmin etmək üçün istifadə edilir;
   - İnformasiya serverləri – bəzi e-mail ünvanları avtomatlaşdırıldığı üçün, istifadəçi onu maraqlandıran müəyyən məsələyə aid elektron poçtuna sorğu etdikdə, o, istifadəçiyə avtomatik olaraq ətraflı cavab göndərmiş olur;
   - Müxtəlif yerlərə göndərilmə – burada e-mail-ə abunə olmaqla dövri olaraq müxtəlif səciyyəvi xüsisuyyətə malik informasiyaları istifadəçi mütəmadi olaraq alır;

   Elektron poçtu vasitəsilə kompüterin yaddaşında saxlanılan istənilən faylı lazımi ünvana göndərmək mümkündür. Bu zaman çalışmaq lazımdır ki, yaddaşda olan faylın həcmi 1 Mbayt-dan artıq olmasın. Çünki böyük həcmli fayllar göndərilən zaman mütləq maneələrlə rastlaşmalı olur. Yəni göndərilmə vaxtı uzanır, nəticədə səhvlərə yol verilir və faylı yenidən göndərmək məcburiyyətində qalırsan. Belə halı aradan qaldırmaq üçün faylı bir qədər sıxlaşdırmaq lazım gəlir.

5. Tapılmış informasiyanın printerdə çapı. İnformasiyanı kağız üzərinə köçürüb çap etmək vəzifəsini icra edən qurğudur.
6. Surətçıxarma aparatı. Mətnin surətinin çıxarılması və çoxaldılması üçün istifadə edilir.
7. Skanerlə iş. Mətn və qrafiki informasiyanın surətini çıxarıb kompüterə daxil etmək üçün bu qurğudan istifadə edilir. Skaner fotoşəkil, əl yazması, qəzet və jurnal surətlərinin kompüterdə təkrar istifadə edilməsini təmin edir. Kitabxanada skanerin istifadəsi əvəzsizdir daha çox oxucu sorğularına tələbat olan kitablar seçilir, bütün səhifələrin surəti skanerdə yığılır, redaktə edilir, tam hazır olduqdan sonra pdf formata çevrilir və oxucuların istifadəsinə verilir.
8. Rəqəmli kamera. Kompütərə təsvirləri daxil etmək üçün istifadə olunan xüsusi quruluşlu cihazdır. Kitabxanada keçirilən tədbirlərin, kitab təqdimatları zamanı foto şəkillərin və yaxud video çəkilişləri zamanı istifadə olunur. Həmin şəkillər kompüterin yaddaşına ötürülür və sayta yerləşdirilir.

Kitabxanalarda oxucuların bir sıra davranışları yol verilməzdir. Multimedia

zalında müəyyənləşdirilmiş qaydalara riayət etmədikləri təqdirdə oxucular cəzalandırılaraq zaldan uzaqlaşdırılır. Belə ki, multimedia zalında aşağıda göstərilən hərəkətlər yolverilməzdir:

1. Qeyri-məntiqi oyun proqramları ilə bağlı iş.
2. Lazımsız saytlara baxış (zorakılıq, erotik səhifələr).
3. Şəxsi disklərin istifadəsi.

Multimedia zalı əsasən qeyd etdiyimiz kimi oxuculara informasiya xidməti müasir texniki avadanlıqlar vasitəsilə (audio, video maqnitofonlar, televizor, kamera, surətçıxarma aparatı, skaner, printer və kompüter avadanlıqlarının, o cümlədən proyektor və ekran) kompüter texnologiyası əsasında həyata keçirilir. Oxucular kompüterdə sərbəst informasiya axtarışına tam hazır olmadığı halda həmişə kitabxanaçının köməyindən istifadə etməyə çalışır. Buna görə də müasir kitabxanalarda multimedia zalında informasiya texnologiyalarından düzgün istifadə etməyi bacaran savadlı kitabxanaçılar işləməlidir. Zalda işləyən hər bir kitabxanaçının kompüterdən istifadə etmək bacarığı olmalıdır. Belə ki, kompüter texnologiyasından düzgün istifadə edildiyi təqdirdə demək olar ki, oxucunun heç bir sualı cavabsız qalmır. Bundan başqa texniki imkanlarla rastlaşmış və yeni biliklərə yiyələnmiş kitabxanaçı oxucularla daha yaxşı və maraqla işləyir. Kitabxanaçıların hazırlıq səviyyəsi və informasiya-proqram bazasının mövcudluğu oxucu ilə dialoq formasında iş qurmağa imkan verir. Yaxşı olardı ki, kitabxanaçılar öz bilik və bacarıqlarını həm də ixtisasartırma və digər kurslar vasitəsilə artırsınlar. Belə kurslardan biri də distant təhsildir. Distant təhsil inkişaf etmiş ölkələrdə tədrisin ən yeni təşkilati formalarından biridir. Yol xərclərinə və vaxta qənaət distant təhsilin ən üstün cəhətlərindəndir. Distant təhsil müxtəlif proses və formalarda, məsələn, WEB bazada təhsil, kompüter bazasında təhsil, virtual sinif otaqları, rəqəmsal əməkdaşlıq və s. ibarətdir. Bu isə təhsilin kitabxanaçıya internet, extarnet (LAN/WAN), audio, video kasetlər, peyk rabitəsi, interaktiv TV və CD ROM vasitəsilə çatdırılmasıdır. Bu məqsədlə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Rusiya Federasiyasının Mədəniyyətşünaslıq Akademiyasının Distant Təhsil Mərkəzi tərəfindən təşkil olunmuş "Kitabxanaların fəaliyyətində internetin tətbiqi: Azərbaycan kitabxanalarının əməkdaşları üçün tədris kursu" adlı onlayn təhsilin iştirakçısı olmuş və yüksək nəticə göstərmişdir.

Müasir dövrümüzdə oxucuların tələbatı olduqca rəngarəngdir. Bu səbəbdən də multimedia zalında ensiklopedik nəşrlər seriyasına daha çox tələbat var. Oxucu tələbatının öyrənilməsi nəticələrinə görə kitabxanalarda elektron ensiklopedik materialların və təhsilə dair elektron materilların faizi məntiqi oyun proqramları və disklərinə nəzərən daha aşağı səviyyədədir. Bu bir sıra səbəblərlə izah edilir: reklam azlığı və belə nəşrlərlə rahat işləmək üçün qeyri-oyun, yəni məntiqi və təfəkkür oyun proqramları fondunun az olmasıdır.

Zalda kiçik yaşlı uşaqların zövqünü oxşayan məntiqi tədris və təlim proqramları daha çox maraq yaradır. Bu proqramların missiyası uşağın yaradıcılıq bacarığını inkişaf etdirmək, həmçinin ibtidai məktəbdə əldə etdiyi biliyi əlverişli şəkildə gücləndirməkdir. Uşaqlar üçün bu zalda həm nağıl və klassik ədəbiyyata həsr edilən

CD, DVD disklərini, həm də məntiqi oyun proqramları arasında bir sıra diskləri ayırmaq olar. Kiçik yaşlı oxuculara “Düyməcik”, “Piter Pen”, “Qırmızıpapaq”, “Cırtdan”, “İki tənbəl” “Qoğal”, “Qarğa və xərçəng”, “At və canavar”, “Tərs keçilər”, “Turpun nağılı”, “Acgöz ayı balaları”, “Canavar və durna” “Пятачок в волшебном лесу”, “Белоснежка и семь гномов”, “Волшебный мир Диснея” (rus dilində-məntiqi oyun) və başqa nağılların CD, DVD disklərini və pazl- oyun kitabları təqdim etmək olar. Burada nəinki interaktiv cizgi filmi formasında təqdim olunan ədəbi yaradıcılığın süjet xətti ilə tanış olmaq olar, həmçinin eyni hekayəyə bir neçə dildə qulaq asmaq mümkündür. Bu da balaca oxucunun xarici dilləri öyrənməsinə kömək edər. Qeyd etmək lazımdır ki, kompüterdən 7 yaşına qədər uşaqlar yalnız valideynlərinin razılığı ilə 15-20 dəqiqədən çox olmayaraq istifadə edə bilər. Orta və yuxarı yaş qrup oxucular internet və multimediya avadanlıqlarından informasiya almaq üçün, balaca oxucularımız isə hələlik nağıllara qulaq asmaq, nağıllar əsasında çəkilmiş cizgi filmlərinə tamaşa etmək, diqqət və təfəkkürü inkişaf etdirmək üçün mövcud olan oyunları oynamaq üçün istifadə etməlidir və kitabxanaçı bu avadanlıqlardan məharətlə istifadə etməli, onların marağına uyğun olan nağılları oxuculara təqdim etməlidir.

Orta və böyük yaşlı oxucular üçün daha ciddi kompüter hazırlığı tələb olunan dərs proqramı əsasında hazırlanmış disklər (Azərbaycan tarixi, Botanika, Zoologiya, Kimya və s.) və məntiqi oyunlar maraq yaradır: strategiya, macəra, fantastika (dəniz əfsanələri, kosmosla bağlı) və başqaları. Bundan başqa, onlar gənc oxucunu fikirləşmək və sərbəst qərar qəbul etmək zərurəti qarşısında qoyur. Oxucuların marağını və tələbatını nəzərə alıb uşaq kitabxanalarının multimedia zalını dərs proqramı əsasında hazırlanmış disklərlə daha çox zənginləşdirmək lazımdır və şərait yaratmaq lazımdır ki, oxucular disklərdən, kompüterlərdən sərbəst istifadə etsinlər. Sərbəst işləmək üçün həm oxucu, həm də kitabxanaçı kompüter biliklərinə yiyələnməlidir. Yaxşı olardı ki, aşağda qeyd olunanları kitabxanaçı bilsin. Çünki kompüterdən istifadə zamanı bunları bilmək lazımdır: informasiyanın bir kompüterdən digərinə ötürülməsini informasiya daşıyıcıları (sərt disk, elastik disk və s.) və kompüter şəbəkəsi vasitəsilə ötürmək olar. İki və daha çox kompüterin ardıcıl birləşməsi kompüter şəbəkəsi meydana gətirir. Kompüter şəbəkələri yerləşdiyi sahədən asılı olaraq lokal və qlobal şəbəkəyə bölünür. Lokal şəbəkə bir neçə fərdi kompüterdən və qurğulardan ibarətdir. Onlar bir-biri ilə məhdud ərazidə kabel əlaqəsi ilə birləşirlər. Şəbəkələrin köməyi ilə fayl və printerlərdən, elektron poçtundan və digər ehtiyatlardan tamamilə istifadə etmək mümkündür. Lokal şəbəkələr ərazi xüsusiyyətlərinə görə yığcamlığı ilə fərqlənir. Odur ki, lokal şəbəkədən istifadə etməklə müxtəlif yerlərdə (məsələn, bir binada, bir mərtəbədə və s.) istifadə olunan kompüterlər birləşdirilir. Lokal şəbəkələr və fərdi istifadəçiləri birləşdirən şəbəkə Qlobal şəbəkə adlanır. Qlobal şəbəkənin köməyi ilə ayrı-ayrı kompüterləri, ayrı-ayrı lokal şəbəkələri birləşdirmək mümkündür. Qlobal şəbəkələri birləşdirən daha yüksək səviyyəli səbəkə də mövcuddur. Bu şəbəkə İnternet adlanır.

İnternet xidməti multimedia zalında təşkil edilən əsas xidmətlərdən biridir. Belə ki, dünya interneti – WWW- ümumdünya hörümçək toru adlandırır və internetdən məlumat almaq, məlumat mübadiləsi üçün istifadə edilir. Bu gün uşaqların,

yeniyetmələrin və gənclərin maraq dairəsini əhatə edə biləcək bir çox sahələr var. Belə ki, müasir dövrümüzdə gənclərin maraqları internet məkanı və virtual aləmlə təmin olunmuşdur. Bu gənclərin sosiallaşmasına müsbət təsir göstərsə də, sağlamlığına, psixikasına ziyan da vura bilər. Uşaqlara və gənclərə intellektual istirahət – bura kitabxanalar, dil, proqram kursları, teatr, tamaşalar daxildir ki, bu növ istirahətə də gəncləri cəlb etmək lazımdır. Maraqlarını, məşğuliyyətini, çevrəsini özü seçə bildiyi üçün bu günkü gənclik mənəvi təlabatlarını dolğunlaşdırmağa çalışmalıdır. Gənclərin yaşam tərzləri, maddi durumları, ailədəki vəziyyət onların istirahətinə, təhsilinə təsir edir və bu imkanlar sadalananları formalaşdırır. Məsələn, bəzi gənclər maddi duruma görə kino-teatra gedib dincələ bilmir, bəzisi ailədəki mentalitet problemlərindən dolayı istirahətini istədiyi kimi seçə bilmir. Evə gec gəlmək, gecə saatlarda gənclərin düzənlədiyi tədbirlərə getmək kimi imkanları olmur. Bu səbəbdən də gənclər qruplara bölünməyə başlayır. Çox az sayda gənc internetdən sırf öz iş- təhsil imkanlarını genişləndirmək, yaxud alət olaraq istifadə edir. Bir qrup gənc internetdən informasiya mənbəyi kimi istifadə etdiyi halda, əsas hissə tanışlıq, sosiallaşma, əyləncə, boş vaxtlarını keçirmək üçün virtual aləmə üz tuturlar. Lakin uzun illərin təcrübəsi göstərmişdir ki, insanların həyatında kitab oxumaq həmişə mühüm rol oynayıb. Kitab oxumaq insanın inkişafında, tərbiyəsində və təhsilində böyük əhəmiyyət kəsb edib. Lakin müasir uşaqların həyatında kompüter və internet televiziyadan da öncə yer tutur. İnternet mütəmadi olaraq bizim həyatımıza öz keyfiyyətlərini dəyişərək daxil olur. Hal-hazırda biz o səviyyədəyik ki, internet sayəsində söz ehtiyatımız və bilik səviyyəmiz artır. Buna görə də multimedia zalında oxucuların internetdən, bloq və sosial şəbəkələrdən (Facebook, Twitter) istifadəsinə şərait yaratmaq lazımdır. Kitabxanalar yuxarıda qeyd etdiyimiz şəbəkələrdə, yəni Facebook və Twitterdə də özlərinə səhifə aça bilərlər. Və çalışmalıdılar ki, yaratdıqları sayt və səhifələr rəngarəng dizaynda olsun. Bu səhifələrdə kitabxanada keçiriləcək tədbirlər haqqında məlumat verilir, tədbirlərin foto şəkilləri, video çarxları yerləşdirilir, kitabxana sahəsində baş verən yeniliklərlə oxucuları tanış edir, kitabxanaya daxil olmuş yeni kitablar haqqında mütəmadi informasiyalar yerləşdirilir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının web saytı (www.clb.az) olmaqla yanaşı, Facebook, Twitter kimi sosial şəbəkələrdə də fəaliyyət göstərir. Səhifələrdə kitabxanamızda həyata keçirilən tədbirlər və kitabxanaya daxil olan yeni ədəbiyyatlarla oxucular məlumatlandırılır. Kitab bayramları, rayonlara ezamiyyyələr də səhifədə öz əksini tapır. Kitabxanamız tərəfindən ötən il 6 rayon üzrə keçirilən "Kitab karvanı: uşaq kitabları İpək yolu ilə" (29 sentyabir- 05 oktyabr) möhtəşəm tədbir, "Krım-2011" Beynəlxalq konfrans, Rusiyanın Lipesk şəhərində keçirilən "Bələdiyyə kitabxanalarının informasiya resurslarının şəhərin inkişafında rolu. Təcrübə və perspektivlər" adlı "Mütaliə" konfransı, İon Kryanga adına Moldava Milli Uşaq Kitabxanasına elmi ezamiyyə haqqında informasiyalar həmin bu səhifələrdə yerləşdirilmişdir. Sosial şəbəkələrdə fəaliyyət göstərmək istəyən kitabxanalar bizim səhifələrdən bəhrələnə və istifadəçilərin kitabxanamıza hər hansı bir sorğusu olarsa e-mail ünvanımıza childlibbaku@yahoo.com yazıb göndərə bilərlər. Kitabxananın web saytı da dolğun işlənilmişdir, həm kitabxanaçılar, həm də oxucular istədikləri informasiyanı saytımızdan ala bilərlər. Saytımızda olan internet-

etiket qaydaları rubrikasında yerləşdirmiş qaydaları kitabxanaçılar multimedia zalında həyata keçirə bilər. Oxucuların sadaladığımız şəbəkələrdən və internetdən istifadəsi o demək deyildir ki, internet vasitəsilə informasiya alan oxucuların sayını artırmalıyıq. Oxucu sorğusunu internetlə yanaşı kitab, dövrü mətbuat vasitəsilə də tapıb oxucuya təqdim etməliyik. Bununla da oxucularda həm multimedia zalından istifadəyə maraq oyatmış olarıq, həm də kitabxananın oxucuların sayı daha da artmış olar. Uşaqların kitaba və kitabxanalara marağının artırılmasında respublika və ümumşəhər əhəmiyyətli mədəni – kütləvi tədbirlərin mühüm rolu vardır. Hər il ənənəvi olaraq keçirilən kitab bayramları. Kitab sərgiləri, müsabiqələr sənət adamlarının yubileyləri, kitab təqdimatları məhz bu məqsədə xidmət edir. Kitabxana işi sahəsində görülənbütün bu işlər yalnız bir məqsədə-ölkəmizdə kitabxana işinin müasir tələblər səviyyəsinə qaldırılmasına xidmət edir. Bu məqsədlə kitabxanamızın Elmi metodika şöbəsində Uşaq kitabxanalarında çalışan kitabxana işçilərinə kömək məqsədilə "Uşaq kitabxanalarında kütləvi tədbirlərin formaları və təşkili" adlı vəsait işləyib, respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarına göndərmişdir.
Proqrama uyğun olaraq kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi , onun forma və məzmunca yeniləşdirilməsi məqsədi ilə F. Köçərli adına RUK - da uşaqların informasiya tələbatı probleminin həllini nəzərdə tutulan manitorinqlər keçirilib. Bu işin həyata keçirilməsində informasiya resurslarından faydalanmaq, uşaqlara yeni bilik və vərdişlərin aşılanması, lazımi tövsiyələrin verilməsi kimi vasitələrdən geniş istifadə olunub.

Biz çox şadıq ki, Azərbaycan Respublikasının kitab abidələrinin müəyyən edilməsi, informasiya daşıyıcılarına köçürülməsi və "Azərbaycanın kitab abidələri" adlı məlumat bazasının yaradılması kimi mühüm bir iş respublika miqyasında həyata keçirilib. Bu bazanın beynəlxalq biblioqrafik standartlara əsasən tərtib edilməsi vahid şəbəkədə axtarışın aparılmasını təmin edir. Hal-hazırda bu abidələr kitabxanaların fondlarında etibarlı şəkildə mühafizə olunmaqdadır. İnformasiya texnologiyasından istifadəyə axın gücləndiyindən oxucular informasiyanı bir neçə mənbədən (kitab və internet) almağı üstün tuturlar. Bununla əlaqədar olaraq oxucularda mütaliəyə həvəsi artırmaq məqsədilə metodistlər ictimaiyyət və oxucular arasında ilin sonunda "Kitab və internet" mövzusunda sorgu keçirmişdir.
Apardığımız sorğu nəticəsində bir çox suallarımıza cavab tapdıq. Məlum oldu ki, oxucuların çox hissəsi daha çox kitabı ənənvi qayda ilə oxumağa üstünlük verdi, amma bununla yanaşı kitabxanada internet şəbəkəsinin olmasını vacib və internetdə kitab sifariş verib oxumağin rahat olduğunu da qeyd etdilər. Yaşadığımız informasiya cəmiyyətində informasiyanın bir yerə toplanıb saxlanılmasında kitabxanaların rolu və mövqeyi əvəzolunmazdır.

Kitabxanalar informasiyanı toplayıb saxlamaqla yanaşı, əldə olunan informasiyanın təyinatı və tələbatı üzrə paylanmasını, çatdırılmasını bilavasitə yerinə yetirən və xalqla sıx əlaqədə olan sosial qurumlardır. Azərbaycan 20 ildən artıqdır ki, müstəqildir və müstəqil ölkədə digər sahələr kimi kitabxana işi də durmadan inkişaf edir, informasiya cəmiyyəti qurulur, milli şəbəkə infrastrukturu formalaşır. Əldə olunan bu nailiyyətlər şübhəsiz ki, dövlətin dəstəyi olmadan reallaşa bilməzdi. Geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda on iki mindən çox müxtəlif

tipli kitabxana mövcuddur. Onlardan 3 min 172-si Mədəniyyət və Turizm Nazirliyinin kütləvi kitabxanalar şəbəkəsinə daxildir. Bizim kitabxanalarda 10 mindən çox insan çalışır, onlardan 8 min 285-i kitabxanaçı kadrlardır. Bu kitabxanalar 2 milyondan çox oxucuya xidmət edir. Kitabxanalar vasitəsi ilə oxucuların ixtiyarına 32 milyon 300 mindən çox ədəbiyyat verilib (kitab, CD, DVD, qəzet və jurnallar və s.). Bizim fikrimizcə Azərbaycan Respublikasında kitabxana sahəsinin inkişafından xəbər verir.




14-15 aprel 2015- ci il tarixdən 25-26may 2015 – ci il tarixinədək F. Köçərli adına RUK- sında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin 2015 - ci ilin I yarısı üçün təsdiqlənmiş iş planının 6.41 maddəsi əsasında F. Köçərli adına RUK - sının Uşaq kitabxanalarında "Nağıl otaqlarının fəaliyyətinin genişləndirilməsi ilə bağlı Gəncəbasar, Qarabağ, Quba-Xaçmaz, Lənkəran-Astara, Şirvan, Muğan, Şəki-Zaqatala zonaları, Sumqayıt, Naftalan, Şuşa, Zəngilan, Qubadlı, Bakı şəhərində fəaliyyət göstərən uşaq kitabxanaları üçün "Uşaq dünyasında kitabxananın rolu" adlı seminar məşğələ keçirilir. Seminarda müxtəlif başlıqlar altında kitab sərgiləri, Nağıl otağında barmaqcıqlı kukla teatrı, video çarxlı slaydlar nümayiş olunur. Bu tədbirin əsas məqsədi respublikanın şəhər (rayon) Mərkəzi Kitabxanalarının uşaq şöbələrində Nağıl otağının yaradılması, kiçik yaşlı uşaqların kitabxanaya cəlb edilməsi, nağıl saatında uşaqlarla müxtəlif maraqlı oyunların, kitabxana dərslərinin keçirilməsinin düzgün təşkilidir.Seminarda təkcə F. Köçərli adına RUK-sının iş təcrübəsindən deyil, digər ölkələrin də bu sahədəki fəaliyyətindən söhbət açılmışdır.





Seminar məşğələdə hər bir iştirakçıya kitabxananın bukleti, vizit kartı, "Gələcəyə baxış:Uşaq dünyasında kitabxananın rolu" adlı elmi metodik vəsait, "Uşaq hüquqları", "Gənc ana və uşaqların maarifləndirilməsi", "Tolerantlıq" mövzularında tövsiyə biblioqrafiyası, seminarın proqramı və dəftərxana ləvazimatı verilmişdir. Seminarı "Kənd kitabxanalarında oxuculara xidmət işinin təşkili metodları" , "Uşaq dünyasında kitabxananın rolu", "Elektron kitabxana və elektron nəşrlər", "İnformasiya cəmiyyətində uşaq kitabxanaları" "Nağıl otağında dərslərin keçirilməsi" mövzusunda məruzələr edilir. Seminarda kitabxananın elmi-metodika

şöbəsinin əməkdaşları tərəfindən tədbir iştirakçıları arasında rəy sorğusu keçirilib, təhlil olunur.

Rəy sorğusunun nümunəsini sizə təqdim edirik.

**İnformasiya cəmiyyətində uşaq kitabxanaları adlı rəy sorğusu**

1. Kitabxananız kompüter avadanlıqları ilə təmin olunubmu?

☺ Bəli

☺ Xeyr

☺ qismən

2. Hansı avtomatlaşdırılmış kitabxana proqramı ilə işləməyə üstünlük verirsiniz?

☺ İrbis

☺ Alisa

☺ --------------------------------------

3. İnternetdən istifadə edirsinizmi?

☺ Bəli (Avtomatlaşma və informasiya şöbələri)

☺Xeyr (Başqa şöbələrin işçiləri)

☺ Hərdən (başqaları)

4. İnternetdən daha çox nəyə görə istifadə edirsiniz?

☺ lazımi informasiyanı tez bir zamanda əldə etmək üçün

☺ Mütaliə üçün

☺ -------------------------------

5.İnformasiyanı oxuculara çatdırmaqda daha çox hansı üsullardan istifadə edirsiniz?

☺ kitab, qəzet və ya jurnal materialları vasitəsilə

☺ internetdə axtarış etməklə

☺ oxucu istəyini nəzərə almaqla

6.Hansı kitabxana saytları ilə tanışsınız?

www.anl.az

www.ryl.az

www.clb.az

www.preslib.az

www/azibnet .org

☺ ----------------------------------

7.Elektron kitabxanaya münasibətiniz?

☺ Əla

☺ Yaxşı

☺ Orta (digərləri)

8.Kitabxananızdan istifadə edən oxucuların informasiya texnologiyaları vasitələrinə (elektron resurslar) tələbat varmı?

☺ Bəli

☺ Xeyr

☺ ---------------------------------------

9. Kitabxanada internet otağının fəaliyyət göstərməsinə razısınızmı?

☺ Bəli

☺ Xeyr

☺ -------------------------------

10. Kitabxananızda hansı müasir informasiya texnologiya vasitələri mövcuddur?

☺ komputer, printer, skaner, MP3 – VCD Radio CD Player

☺ komputer, printer. Skaner

☺ komputer, printer

11.Digər xarici dövlətlərin kitabxanalarının saytları ilə maraqlanırsınız ?

☺ Bəli

☺ xeyr

12. Kompüter biliklərinə tam yiyələnmisinizmi? ( Excel, Pover. Point, Vord proqramlarını bilirsinizmi?)

☺ Bəli

☺ Xeyr

☺ Öyrənməyə daim ehtiyac duyuruq

13.“KT ili “ çərçivəsində işinizdə hansı yenilikləri tətbiq edəcəksiniz?

☺ bizdən asılı olan hər bir işin öhdəsindən gəlməyə hazırıq.

☺ Sərgi təşkil etmək, söhbətlər , seminarlar təşkil olunacaq.

14. Oxucularınız informasiyanı daha çox hardan əldə edirlər?

a) kitabxanadan
b) məktəbdən
c) internetdən
d) sosial şəbəkələrdən
e) televiziyadan

15. Oxucularınıza mütaliəni necə izah edirsiniz?

a) müəllim tapşırıqları əsasında dərs materiallarını oxumaq

b) öz dünyagörüşünü artırmaq məqsədilə ədəbiyyat oxumaq

c) nitq inkişafını artırmaq məqsədilə ədəbiyyat oxumaq

d) kitab oxumağa vərdiş etmək

16. Sizin fikrinizcə müasir kitabxana nə deməkdir?

a) istirahət yeri
b) qiraət evi
c) məktəb proqramı ilə bağlı dərs tapşırıqlarını yerinə yetirmək üçün müəssisə
d) internet zalı

17. İnformasiya texnologiyasına münasibətiniz?

a) yaxşı
b) pis
c) bilmirəm

18.Oxucularınız ən çox hansı janrda olan ədəbiyyata üstünlük verirlər?

☺ Bədii

☺ Elmi

☺ Publisistik

☺ Dedektiv

☺Tarixi mövzular

19.Oxucularınız daha çox kitabxananızın hansı xidmət şöbəsindən yararlanırlar?

☺Abonement

☺ Oxu zalı

☺---------------------------

20. Kitabxananın xidmət sahəsində nə kimi yeniliklər görmək istərdiniz?

☺___________________________________

21. Sizin fikrinizcə kitabxanaçı necə olmalıdır?

☺ Gülərüz

☺ Ciddi

☺ Savadlı

☺ Zəngin dünyagörüşlü

☺ Qayğıkeş

22.Ən çox bəyəndiyiniz uşaq yazıçısı və şairinin adını qeyd edin.

☺____________________________________

23. Dünya ədəbiyyatı nümayəndələrindən kimin əsərlərini daha çox bəyənirsiniz?

☺____________________________________

24.Oxucularınız Kitabxanaya daha çox nə oxumağa gəlirlər?

☺ Kitab

☺ Qəzet

☺ Jurnal

25.Sizin fikrinizcə oxucular uşaq yazıçılarını və şairlərini ən çox hardan tanıyırlar?

A Kitabxanadan

B Dərsliklərdən

C Televiziyadan

D İnternetdən

26.Müasir yazarlar sizi qane edirmi?

☺_________________________________

27. Uşaq ədəbiyyatını necə əldə edirsiniz?

a)M. F. Axundov kitabxanasından

b)F. Köçərli adına RUK-sından

c) ☺_________________________________

30. Kitabxananızda ekologiya,idman sahəsi ilə bağlı yetərincə ədəbiyyat varmı?

a)Bəli

b) Xeyr

☺________________________________

28. Kitabxananızda nağıl saatı, psixologiya saatı keçirilirmi və siz buna necə baxırsınız?

☺________________________________

29. Kitabxananız müasir uşaq ədəbiyyatı ilə tam təmin olunubmu?

☺________________________________

Sizin təklifləriniz:

Elmi Metodik Mərkəz kimi fəaliyyət göstərən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər gətirmək, tez-tez dəyişən, inkişaf edən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq, hər cürə yeniliklərə qarşı onların daha savadlı, daha zəkalı böyüməsinə təkan verməkdir. Ümüdvarıq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu vəzifələrin öhdəsindən layiqincə gələcək və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin nəşr edilməsində, regionun uşaq kitabxanaları üçün metodik təminat sisteminin güclənməsində və kitabxanaçı kadrların səriştəsinin artırılmasında bütün imkanlarından müvəffəqiyyətlə istifadə edəcəkdir.

**İstifadə olunan ədəbiyyat siyahısı:**


**1.** “Azərbaycan Respublikasinda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafi üzrə” Dövlət Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (6 oktyabr 2008 il) // Xalq qəzeti.- 7 oktyabr.- 2008.- S.1

**2.** Xələfov Abuzər. Azərbaycanda kitabxana işinin tarixi.- B.:Bakı Universiteti Nəşriyyatı, 2004.- 328s.

**3**. İnformatika və kompüterləşmənin əsasları / Abbasov Ə., Əlizadə M.Seyidzadə E. və b.- B.: MSV NƏŞR, 2006.- 880s.

**4.** “Kitabxana işi haqında” Azərbaycan Respublikasının Qanunu (12 mart 1999 il) // Azərbaycan.- 1999.- 14 mart.- S.3


**Redaktor:** **Qəmbərova Şəhla - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edən:** **Məmmədli Ruhiyyə – F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi-metodika şöbəsinin müdiri**